**İsa Həbibbəyli**
akademik

# CƏLİL MƏMMƏDQULUZADƏ, "MOLLA NƏSRƏDDİN" JURNALI VƏ MOLLANƏSRƏDDİNÇİLİK

*"Molla Nəsrəddin: satirik jurnal: on cilddə (1906-1931). Bakı: Şərq-Qərb, - 2018. - 647 s." kitabının I cildinin baş məqaləsi*

Ölkəmizdə milli mətbuat XIX əsrdə yaranmış "Əkinçi" qəzeti ilə meydana çıxmış, böyük və şərəfli yol keçmişdir. Azərbaycanda mətbuatın inkişafı sahəsində zəngin və davamlı ənənələr formalaşmışdır. Azərbaycan cəmiyyətinin inkişaf etdirilməsində və müasirləşməsində milli mətbuat mühüm rol oynamışdır. "Əkinçi"dən Şərqi-Rus"a, "Füyuzat"dan "Azərbaycan"a və "525-ci qəzet"ə qədər davam etməkdə olan şərəfli və məsuliyyətli yol geniş mənada ölkəmizdə müasir cəmiyyət quruculuğunun möhtəşəm salnaməsini dolğun şəkildə əks etdirir. Azərbaycan mətbuatı ölkəmizdə ictimai-mədəni inkişafın əsas hərəkətverici qüvvələrindən birini təşkil edir.

Azərbaycan milli mətbuatının inkişafında ən uca zirvəni böyük demokrat yazıçı və görkəmli ictimai xadim Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr olunan "Molla Nəsrəddin" jurnalı təşkil edir. "Molla Nəsrəddin" jurnalı ilə Azərbaycanda milli satirik mətbuatın əsası qoyulmuşdur. Özünəqədərki Azərbaycan mətbuatında satiradan müəyyən dərəcədə istifadə olunmasına baxmayaraq, ilk dəfə müstəqil və uzun ömürlü satira jurnalı kimi "Molla Nəsrəddin" məcmuəsi yola çıxmış və böyük ədəbi-tarixi vəzifəsini yerinə yetirmişdir.

Geniş mənada türk-müsəlman dünyasında da "Molla Nəsrəddin" jurnalı ilə satirik mətbuatın və ədəbiyyatın, demokratik ictimai fikrin əsası qoyulmuş, bu sahələrin inkişafına ciddi təkan verilmişdir. Şərq aləminə satira günəşi ilk dəfə "Molla Nəsrəddin"dən doğmuşdur. Məhkum Şərqin oyanışı, dirçəlişi və istiqlalı uğrunda geniş, sistemli və ardıcıl mübarizə "Molla Nəsrəddin" jurnalı ilə başlanmışdır.

Özünün dərin ideya-məzmununa və yüksək mübariz keyfiyyətlərinə, bənzərsiz forma va üslubuna görə "Molla Nəsrəddin" jurnalı Qərbin də ən nüfuzlu mətbuat orqanları ilə yanaşı dayanmaq, bərabər səviyyədə təmsil olunmaq, hətta üstün olmaq imkanlarına malikdir. Belə demək mümkündür ki, "Molla Nəsrəddin" Azərbaycanda Qərb standartları ilə nəşr olunan mükəmməl Şərq məcmuəsidir, yaxud hər iki qütbün sintezindən yoğrulmuş ilk Şərq-Qərb jurnalıdır. Yeni tarixi epoxada Azərbaycan ədəbiyyatı, mətbuatı və ictimai fikri Qərb müstəvisi səviyyəsinə "Molla Nəsrəddin" jurnalı vasitəsilə çıxarılmışdır.

"Molla Nəsrəddin" jurnalı Azərbaycan xalqının milli azadlıq və dövlət müstəqilliyi uğrunda apardığı mübarizənin ədəbiyyatda və mətbuatdakı sərkərdəsidir. Bu mübariz jurnal Azərbaycanın milli istiqlalına mütəşəkkil nizami bir ordudan çox xidmət göstərmişdir. "Molla Nəsrəddin" jurnalı Azərbaycan xalqının milli dirçəliş və azadlıq ideyalarından, vətəndaşlıq ruhundan yoğrulmuş mənalı bir istiqlal kitabıdır. Azərbaycanda milli demokratik mətbuatın bayraqdarı da "Molla Nəsrəddin"dir. Söz azadlığı, insan haqları, cəmiyyətin demokratikləşdirilməsi prosesləri ilə bağlı ideyalar həm milli mətbuata və ədəbiyyata, həm də ictimai həyata "Molla Nəsrəddin" jurnalı

vasitəsilə gətirilmişdir. Azərbaycanda milli azadlıq, dövlət müstəqilliyi və demokratiya, milli-mənəvi dəyərlərin inkişaf etdirilməsi uğrunda son yüzillikdə, müasir dövrdə də aparılan mübarizəni Cəlil Məmmədquluzadəsiz və "Molla Nəsrəddin" jurnalı olmadan təsəvvür etmək çətindir. Cəsarətlə demək olar ki, Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı millətimiz, milli-mənəvi varlığımız və müstəqil dövlətçiliyimiz uğrundakı istiqlal davasının əsas hərəkətverici qüvvəsi və həmin mübariz yürüşün əsas lokomotividir. Azərbaycana həm də türk-müsəlman dünyasına və Qafqaza istiqlal məfkurəsinin, demokratiya ab-havasının gərəkli və şərəfli yükünü "Molla Nəsrəddin" qatarı çəkib gətirmişdir. "Molla Nəsrəddin" milli istiqlal ideyasının böyük əkinçisidir. Bu mənada "Molla Nəsrəddin" jurnalı sözün əsl mənasında əsl "həqiqət və intibah kitabı" [1] funksiyasını həyata keçirmişdir.

Azərbaycanda realist-satirik ədəbiyyatın yaranması və inkisafı, tənqidi realizmin formalaşdırılması, satira mətbuatının, karikaturanın milli sərvətə çevrilməsi də "Molla Nəsrəddin" jurnalının adı və fəaliyyəti ilə üzvü surətdə əlaqədardır: Azərbaycanda tənqidi-realist və satirik yazıçıların böyük bir nəsli "Molla Nəsrəddin" jurnalının işığında yetişib formalaşmışdır. Buna görə də "Molla Nəsrəddin" jurnalı XX əsrin əvvəllərində yazıb-yaratmış Azərbaycan mollanəsrəddinçi yazıçı və şairlərinin əsərlərinin çox-cildlik külliyatıdır.

"Molla Nəsrəddin" ədəbiyyatımızın və mətbuatımızın tarixində xüsusi ədəbi məktəb yaratmış ilk jurnaldır. Bir ədəbi məktəb kimi "Molla Nəsrəddin" məktəbi Nizami, Füzuli və Mirzə Fətəli Axundzadə məktəbləri ilə yanaşı dayanır. Qüdrətli ədib və böyük ictimai xadim Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradıcısı və rəhbəridir. O, ədəbiyyatımızın, mətbuatımızın və ictimai fikrimizin möhtəşəm, uzaqgörən və müdrik Azərbaycan Molla Nəsrəddinidir. Bu dəyərli jurnal Cəlil Məmmədquluzadənin və mollanəsrəddinçilərin çoxillik və ardıcıl mübarizəsinin, habelə zəngin və mənalı yaradıcılığının güzgüsüdür.

"Molla Nəsrəddin" jurnalı Azərbaycan milli mətbuatının şah əsəridir. Bu qiymətli jurnalın təsiri ilə ilk növbədə Azərbaycanda və Qafqazda, geniş mənada isə türk-müsəlman dünyasında çoxsaylı satira jurnallar va qəzetləri meydana çıxmış, realist-satirik ədəbiyyatın və karikaturaçılığın inkişafı davamlı xarakter almış, genişlənmişdir. Bu mənada "Molla Nəsrəddin" jurnalının nəşri ilə başlanıb müasir günlərə qədər davam edən tarixi dövr ədəbiyyatda, mətbuatda və ictimai fikirdə "Molla Nəsrəddin" epoxası adlanır. Qoca "Molla Nəsrəddin"in mənəvi rəhbərliyi va uzaqgörən ideyaları, möhkəm və əsaslı proqramı ilə köklənmiş mollanəsrəddinçilik epoxası əbədi yaşamaq haqqı qazanmışdır.

***

Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə (1869-1932) Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında yeni ədəbi mərhələ yaratmışdır. Qori Müəllimlər Seminariyasını bitirmiş (1887), Naxçıvan mahalının Baş Noraşen və Nehrəm məktəblərində müəllimlik etmiş (1887-1897) Cəlil Məmmədquluzadənin həyatının ədəbiyyata bağlanmasında Məhəmməd ağa Şahtaxtlının redaktorluğu ilə

[1] Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər. Bakı, "Ziya-Nurlan", 2004, səh. 61

Tiflisdə nəşr edilmiş “Sərqi-Rus” qəzetinin mühüm rolu olmuşdur. Bu qəzetdə çap olunmuş məshur “Poçt qutusu” hekayəsi Cəlil Məmmədquluzadəni ədəbi mühitdə yeni tipli yazıçı kimi tanıtmışdır. “Poçt qutusu” Azərbaycan ədəbiyyatında realist-satirik hekayənin manifestidir.

Cəlil Məmmədquluzadə bədii yaradıcılığa 1889-cu ildə yazdığı “Çay dəsgahı” adlı mənzum alleqorik pyesi ilə başlamışdır. Yazıçının ədəbi taleyində “Danabaş kəndinin əhvalatları” povesti (1894) mühüm yer tutur. Bu, Azərbaycan ədəbiyyatında kiçik adamı böyük ədəbiyyatın əsas qəhramanı səviyyəsinə qaldıran mükəmməl bədii nəsr nümunəsidir. Əsərdəki Məhəmmədhəsən əmi, Xudayar bəy, Zeynəb, Vəliqulu, Ziba kimi obrazlar ədəbiyyat aləminin yeni sakinləri idilər. Vətəndaş yazıçı “Danabaş kəndinin əhvalatları” povesti ilə kiçik adamın timsalında xalqın müdafiəçisi olduğunu bəyan etmiş, bu ideala bütün yaradıcılığı boyu sadiq qalmışdır. Cəlil Məmmədquluzadənin “Poçt qutusu”, “Usta Zeynal”, “Qurbanəli bəy”, “Pirverdinin xoruzu”, “Quzu”, “Nigarançılıq” kimi kiçik hekayələrindəki sadə adamlar və adi əhvalatlar dövrün real mənzərəsini və inkişafa olan zərurəti dolğun şəkildə əks etdirir. Yazıçı müstəmləkə siyasətinin real təzahürlərini, acı səhnələrini realist boyalarla təsvir etmiş, mənsub olduğu xalqın milli oyanışı və azadlığı yollarında böyük zəka və iradə ilə xidmət göstərmişdir.

Cəlil Məmmədquluzadənin dramaturgiyası mövzu, ideya və bədii forma baxımından yeni hadisə idi. Mirzə Fətəli Axundzadənin komediyaları dram janrına yaxın pyeslərdir. Cəlil Məmmədquluzadənin dram əsərlərində isə faciə motivləri güclüdür. Böyük ədibin “Ölülər” pyesində dövrün faciəvi hadisələri, ictimai buxovların və mənəvi əsarətin doğurduğu cəhalət kəskin tənqid olunmuşdur. “Ölülər” - fanatizm və geriliyin komediyası, yeni düşüncənin faciəsini yüksək bədii səviyyədə əks etdirən böyük sənət əsəridir. Bu, Azərbaycan dramaturgiyasının tarixində tragikomediya mərhələsinin başlanğıcıdır. Cəlil Məmmədquluzadənin “Anamın kitabı”' dramında da (1920) eyni ailə daxilində fərqli ideyalara xidmət etməyin, milli idealdan uzaq düşməyin faciəsi öz əksini tapmışdır. “Anamın kitabi” – Azərbaycançılıq idealının dramatik üverturasıdır. Əsərdəki Zəhrabanu Ananın monoloqu - milli-mənəvi birliyə çağırışın qüvvətli əks-sədasıdır. Gülbaharın düşüncəsi və baxışları yaradılması çox zəruri olan yeni Azərbaycanın simasını müəyyən edir. Bütün bunlara görə “Anamın kitabı” Azəbaycan ədəbiyyatının möhtəşəm Azərbaycannaməsidir.

“Kamança” pyesi (1920) Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq millətlərarası münaqişənin böyük güclərin maraqlarına xidmət edən real siyasi mahiyyətini əks etdirən, əsl insani dəyərlərin hər cür ədavətdən yüksəkdə dayandığını inandırıcı surətdə göstərən dərin ictimai məzmuna malik təsirli və ibrətamiz dram əsəridir.

“Dəli yığıncağı” (1926) – hadisələri keçmişə köçürməklə, əslində, yazıldığı dövrün ictimai faciəsini realist şəkildə təqdim edən dram əsəri nümunəsidir. Azərbaycanda yeni qurulmuş sovet üsul-idarəsinin daxili çürüklüyü, siyasi-mənəvi iflası dəli yığıncağı səviyyəsində ümumiləşdirilmişdir. “Yığıncaq” pyesində mövcud cəmiyyətdəki mənasız təbliğatın mənəvi proseslərə təsir etmək imkanlarından uzaq olduğu nəzərə çarpdırılmışdır. “Ər” pyesində (1930) yazıçının “Ölülər” və “Dəli yığıncağı” əsərlərində ifadə olunmuş mənəvi ölülük və çaşqınlıq mühitinin faciəvi təzahürlərinin ümumiləşmiş səhnələri əks etdirilmişdir. Cəlil Məmmədquluzadə “Ər” pyesində xalqın nicatının onun öz içərisindən yetişib formalaşmış qüdrətli bir ər-rəhbərin meydana

çıxmasında olması ideyasını irəli sürmüşdür. Beləliklə, böyük demokrat yazıçı ölməz bədii əsərləri ilə Azərbaycan xalqının müstəqil dövlətçiliyi yollarında əsl vətəndaşlıq nümunəsi göstərmişdir.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında tənqidi realizmin yaradıcısı və "Molla Nəsrəddin" ədəbi məktəbinin başçısı kimi böyük xidmət göstərmişdir. Azərbaycanda kiçik hekayənin və satirik publisistikanın meydana gəlməsi də Cəlil Məmmədquluzadənin adı ilə bağlıdır.

***

Məlum olduğu kimi, "Molla Nəsrəddin" jurnalının birinci nömrəsi artıq yazıçı və publisist kim ədəbi mühitdə tanınmış Cəlil Məmmədquluzadənin baş redaktorluğu ilə 7 aprel 1906-cı il tarixdə Tiflis şəhərində nəşr olunmuşdur. Bundan əvvəl Cəlil Məmmədquluzadə 1905-ci ilin avqust ayında Tiflisdə "Novruz" adlı qəzet çıxarmağa rəsmi icazə almış, lakin özünün yazdığı kimi hələlik "ruhanilərə təməllüq" (yaltaqlıq - İ.H.) etmədən, "canişin həzrətlərinə... qəsidə oxumadan" qəzet çıxarmaq mümkün olmadığı üçün o həmin qəzetin nəşrindən imtina etmişdir. Az sonra vəziyyət dəyişmiş, çar hökumətinin siyasi hadisələrin ciddi təsiri ilə bəyan etməyə məcbur olduğu məlum 17 Oktyabr manifestinin elan etdiyi "növ-növ" mətbuat dünyasında əmələ gələn "nəfəs genişliyi"[2] onu çoxdan arzu etdiyi satirik jurnal çıxarmağa yenidən həvəsləndirmişdir. Buna görə də Cəlil Məmmədquluzadə 21 fevral 1906-cı ildə Tiflis Qubernatoruna müraciət edərək, "Qeyrət" mətbəəsində çap olunmaq şərti ilə "müsəlman ədəbiyyatında əfsanəvi təlxək"[3] kimi tanınan "Molla Nəsrəddin" adlı satirik-yumoristik jurnal çıxarmağa icazə verilməsini xahiş etmişdir. Tiflis polismeysterinin Cəlil Məmmədquluzadənin indiyədək "qeyri-qanuni hərəkətdə olmadığını"[4] təsdiq edən arayışından sonra "Molla Nəsrəddin"in nəşrinə razılıq verilmişdir. Bu barədəki 874 nömrəli şəhadətnamə 17 mart 1906-cı il tarixdə Cəlil Məmmədquluzadəyə çatmışdır[5]. Beləliklə, doğrudan da, "Molla Nəsrəddin"; "zəmanə özü" yaratmışdır. İlk nömrəsi min tirajla nəşr olunan jurnalın 500 nüsxəsi "bir günün ərzində günortayadək... Tiflis şəhərində intişar"[6] tapmış, satılıb qurtarmışdır. Dövrünün tanınmış ziyalılarından Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Firidun bəy Köçərli, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev və başqaları "Molla Nəsrəddin"in nəşrə başlanması münasibətilə Cəlil Məmmədquluzadəni təbrik etmiş, həmin münasibətlə dövri mətbuatda məqalələr dərc etdirmişlər. Əhməd bəy Ağayevin Bakıdan ünvanlanan təbrik xarakterli məqaləsində deyilirdi: "Baxın "Molla Nəsrəddin"ə. Bu cəridə nə gözəl cəridədir. Nə qədər ağıl, zəka, məharət və zövq göstərir. Nəinki biz müsəlmanlar, bəlkə, ən mədəni, ən mütərəqqi tayfalar belə cəridələri ilə fəxr edərlər"[7]

---

[2] Cəlil Məmmədquluzadə. Əsərləri, 4 cilddə, IV cild (tərtib edəni və izahların müəllifi İ. Həbibbəyli). Bakı, "Öndər", 2004, səh. 66

[3] A. Paşayev "Molla Nəsrəddin": dostları, düşmənləri. B., 1982, səh. 10

[4] Q.Məmmədli. Molla Nəsrəddin (salnamə). B., 1984, səh. 10

[5] Gürcüstan MDTA, fond 17, siy. 1, Q- 5386, v. 2.

[6] Cəlil Məmmədquluzadə, əsərləri, 4 cilddə, IV cild. Bakı, "Öndər", 2004, səh. 97.

[7] "İrşad" qəzeti, 16 aprel 1996, N°90.

Peterburqda nəşr edilən "Ülfət" qəzeti isə yazırdı: "Tiflisdə çıxan "Molla Nəsrəddin" jurnalının birinci nömrəsi idarəmizə gəldi. Jurnalın çox gözəl lətifələri, qayət odlu yazıları vardır... Şükürlər olsun ki, lətifə jurnalımız da oldu".[8]

Firidun bəy Köçərlinin "Tiflisskiy listok" qəzetində dərc olunmuş məqaləsində "Molla Nəsrəddin" məcmuəsinin ilk nömrələrindən etibarən "müsəlman cəmiyyətini islah etməkdən ibarət olan məqsədi" ustalıqla dəyərləndirilmişdir: "Bu ilin aprel ayından Tiflisdə çıxan yumoristik "Molla Nəsrəddin" jurnalı ilk nömrələrindən başlayaraq bizim ölkənin müsəlmanları arasında canlı maraq oyatmışdır... Jurnalı... savadlı və mədəni azərbaycanlı – Mirzə Cəlil Məmmədquluzadə nəşr edir... "Molla Nəsrəddin" nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etməkdən ibarət olan məqsədini tamamilə yerinə yetirir... Jurnal hər şeydən çox müsəlmanlar arasındakı mövhumata, cəhalət və fanatizmə gülür... Biz Cəlil Məmmədquluzadəyə səmimi qəlbdən müvəffəqiyyətlər arzu edir və ümidvarıq ki, müsəlman cəmiyyəti bu faydalı və yeganə jurnalın nəşrinə kömək göstərəcəkdir".[9]

"Molla Nəsrəddin" jurnalı 1917-ci ilə qədər bəzi fasilələrlə Tiflisdə fəaliyyətini davam etdirmişdir. Hələ "Şərqi-Rus" qəzeti redaksiyasındakı birgə fəaliyyəti dövründən tanıdığı, qələminə və məsləkinə yaxından bələd olduğu Ömər Faiq Nemanzadənin, naxçıvanlı tacir Məşədi Ələsgər Bağırovun iştirakı və köməyi ilə nəşrə başlayan jurnal qısa müddətdə geniş dairədə yayılmış, böyük nüfuz qazanmış, öz ətrafında çoxsaylı yaradıcı qüvvələr və etibarlı tərəfdarlar toplaya bilmişdir. İxtiyarında "Qeyrət" nəşriyyatının olması və "fikirləri cövlanə, qələmləri hərəkətə gətirən"[10] "Şərqi-Rus" qəzeti redaksiyasında qazandıqları təcrübə Cəlil Məmmədquluzadəyə və məsləkdaşlarına "Molla Nəsrəddin" jurnalını vaxtlı-vaxtında, yüksək poliqrafik səviyyədə nəşr etməyə imkan yaratmışdır. Əvvəlcə Tiflis Rəssamlıq və Heykəltaraşlıq məktəbinin müdiri Oskar Şmerlinqin (1863-1938), daha sonra isə onun müəllim həmkarı Jozef Rotterin, habelə məşhur azərbaycanlı rəssam Əzim Əzimzadənin çəkdikləri müsəlman aləmini əks etdirən karikaturalar "Molla Nəsrəddin"in yalnız savadlı təbəqə içərisindən deyil, yazıb-oxumağı bacarmayan geniş kütlə arasında da yayılmasına və şöhrət tapmasına səbəb olmuşdur. Baş redaktor Cəlil Məmmədquluzadənin məharətlə apardığı "həqiqi "Molla Nəsrəddin" şairi" axtarışlar sayəsində az müddətdə Mirzə Ələkbər Sabir (1862-1911), Əli Nəzmi (1878-1946), Əliqulu Qəmküsar (1880-1919) və bu kimi digər istedadlı şairlərin meydana çıxması, kəşfi, maraqlı bədii-publisist yazılarla çıxış etmələri jurnalın ideya-məzmun etibarilə də öz dövrünün Tiflisdə müxtəlif dillərdə çıxan mətbuat orqanlarından üstün keyfiyyət qazanmasına ciddi təkan vermişdir. Cəlil Məmmədquluzadənin və mollanəsrəddinçilərin sadə, açıq ana dilində yazmaq məramı və mövqeyi milli və vətəndaşlıq cəsarəti də qısa müddət ərzində "Molla Nəsrəddin"i xalqa doğmalaşdırmışdır.

Ən müxtəlif təqiblərə və təzyiqlərə, hədyanlara və böhtanlara baxmayaraq, "Molla Nəsrəddin" jurnalı heç vaxt tutduğu yoldan – məsləkindən dönməmişdir. Cəlil Məmmədquluzadənin: "Əgər bizim məcmuənin mətalibi avam camaata xoş gəlmir, bu dəxi təəccüblü bir iş deyil. O səbəbə ki, camaatımızın indiki halında məsləkini qara

---

[8] Sitat Q.Məmmədlinin "Molla Nəsrəddin" salnaməsindən (B., 1984) götürülmüşdür. (Bax: səh. 68)
[9] F.Köçərli. "Molla Nəsrəddin". "Tiflisskiy listok" qəzeti, 13 yul 1906, N°147
[10] Bax: "Şərqi-Rus" qəzeti, 19 mart 1903, N° 32

pula satmayan və öz başa düşdüyunü saqi-dildən yazan cəridə avama xoş gəlməz”[11] kimi qətiyyətli bəyanatları “Molla Nəsrəddin”in və mollanəsrəddinçilərin dönməz məslək və ideya adamı olduqlarını hər kəsə çatdıra bilmişdir. Beləliklə, mollanəsrəddinçilik bir fikir, ideya məsləkçisi kimi formalaşmışdır. Cəlil Məmmədquluzadə və mollanəsrəddinçilər sözün böyük və həqiqi mənasında əsl vətəndaş və məsləkdaşlar kimi tanınıb, millətin istəkli adamına, ədəbi-ictimai fikrin aparıcı qüvvəsinə çevrilə bilmişlər. Beləliklə, Azərbaycan mətbuatının və ədəbiyyatının “Molla Nəsrəddin” dövrü başlanmışdır. Milli oyanış və dirçəliş, cümhuriyyətçilik və müstəqil dövlətçilik, millilik və demokratiya, mübarizə və azadlıq “Molla Nəsrəddin” dövrü ədəbiyyatı və mətbuatının ana xətlərini, başlıca qayəsini təşkil edir. “Kiçik adam”ın taleyinin birinci yerdə dayanması “Molla Nəsrəddin”i sadə camaata yaxınlaşdırmışdır. Azərbaycançılıq “Molla Nəsrəddin” jurnalında məxsusi bir milli məfkurə səviyyəsinə çatdırılmışdır. Sözün geniş mənasında Cəlil Məmmədquluzadə azərbaycançılıq ideyasının əsas yaradıcılarından biri, Böyük Azərbaycan idealının Məcnunu və mücahididir. Demokrat ədibin əsərləri və xüsusən də “Molla Nəsrəddin” jurnalı dərin mənalı və məramlı Azərbaycannamədir. “Molla Nəsrəddin” jurnalında dərc olunmuş məşhur “Azərbaycan” məqaləsi təkcə Cəlil Məmmədquluzadə publisistikasının şah əsəri olmaqla qalmayıb, ümumən mollanəsrəddinçilik təlimində baş yeri tutan azərbaycançılıq idealının ümumiləşmiş bəyanatı kimi səslənir. “Azərbaycan” məqaləsi – Azərbaycanda milli oyanış və özünüdərk idealının həqiqi bədii manifestidir. “Azərbaycan” məqaləsi “Molla Nəsrəddin” jurnalında Azərbaycan coğrafiyasının vətəndaş ədib Cəlil Məmmədquluzadənin mahir qələmi ilə çəkilmis nadir publisist xəritəsidir. Bu məqalədəki aşağıdakı parça hər bir Azərbaycan övladı üçün əsl ana dili, coğrafiya, Vətən və tarix dərsliyidir:

“Bəzi vaxt otururam, papağımı qabağıma qoyub fikrə gedirəm. Xəyallara cumuram. Özümdən soruşuram ki:

- Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

- Mənim anam rəhmətlik Zəhrabanu bacı idi.
- Dilim nə dilidir?
- Azərbavcan dilidir.
- Yəni Vətənin haradır?
- Azərbaycan vilayətidir.
- Haradır Azərbaycan?
- Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən. Qalan hissələri də Gilandan tutmuş qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxilindədir”.[12]

“Molla Nəsrəddin”in meydana qoyduğu “Azərbaycan” məqaləsi ilə XX əsrin əvvəlləri ərzində səsləndirilən gündəmdə olan azərbaycançılıq ideyası milli məfkurə səviyyəsinə yüksəlmişdir.

---

[11] Cəlil Məmmədquluzadə. Cavabımız. “Molla Nəsrəddin” jurnalı, 11 dekabr 1911, N944

[12] Cəlil Məmmədquluzadə. Əsərləri, 4 cilddə, III cild (tərtib edəni İ. Həbibbəyli). Bakı, “Öndər”, 2004, səh. 5

***

XX əsrin əvvəllərində “Molla Nəsrəddin” jurnalı “Həyat”, “İrşad”, “Tərəqqi” kimi qəzetlər, xüsusən “Füvuzat” jurnali ilə yanaşı fəaliyyət göstərmiş, mətbuat dünyasında üstün mövqeyini qoruyub saxlamışdır. Qeyd etmək lazımdır ki, bu mətbuat orqanlarının hər biri müxtəlif bucaqlardan, fərqli yollarla xalqımıza xidmət göstərmiş, onların fəaliyyətləri bir-birini tamamlamışdır. Lakin sovet hakimiyyəti illərində “Molla Nəsrəddin” və “Füyuzat” jurnalları, hətta Cəlil Məmmədquluzadə və Əli bəy Hüseynzadə kimi ədiblər süni şəkildə bir-birinə qarşı qoyulmuş, əks cəbhələri təmsil edən ədəbi qüvvələr kimi təqdim edilmişdir. Bu məqamda Cəlil Məmmədquluzadənin ədəbi mühitdə qəbul olunmuş tənqidi realizm ədəbi cərəyanını, Əli bəy Hüseynzadənin isə, sovet dövründə qəbul edilmiş terminologiya ilə desək, “mürtəce romantizmi” təmsil etmələri, “Molla Nəsrəddin”in inqilabi-demokratik platformadan, “Füyuzat”ın isə guya pantürkist və panislamçı mövqedən söz açması barədəki təsəvvürlər mühüm faktora çevrilmişdir. “Füyuzat” və “Molla Nəsrəddin” tarixin konkret gerçəkliyində cəmi iki il mübarizə aparmışdır. Vulqar sosioloqlar isə onları ədəbiyyatşünaslıqda yetmiş iki il vuruşdurmuşlar.[13] Məlum ideoloji tələblərə istinad edən müəlliflərin yazılarındakı konkret ədəbi-tarixi faktlardan qat-qat çox, ümumi məfkurəvi prinsiplərdən doğan meyilləri mənalandıran yanlış mülahizələrdən “böyük bir kitab alınar”?[14] Uzun sürən süni qarşıdurmadan sonra yalnız XX əsrin səksəninci illərinin axırlarından etibarən yaradılmış münaqişələrdən sonra nə qədər acı olsa da, ədəbiyyatımızda əcaib hadisələr[15] törədildiyi elmi fikirdə etiraf edilmişdir. Halbuki Əli bəy Hüseynzadə “Həyat” qəzetində, “Molla Nəsrəddin” və “Dəbistan” adlı xüsusi məqalə dərc etdirməklə milli satirik mətbuatın “baniyi-karına” – Cəlil Məmmədquluzadəyə heyranlıq göstərdiyini və rəğbət bəslədiyini gizlətməmişdir. Bu, Vətənin nicat yollarını aramaqda və mənsub olduqları millətə xidmət etməkdə hər iki sənətkarın daha çox ümumi baxışlara da malik olduqlarını göstərən maraqlı bir publisist nümunədir. Məqalədə deyilirdi: “Qafqasiyamızda göz kötüklərini, qaya daşlarını yonatmaq, yonmaq üçün müxtəlif alətlər icad etməyə əzim bir meyil və həvəs müşahidə olunur. Bu növ alətlərdən biri də Tiflisdə həftədə bir çıxan “Molla Nəsrəddin” adlı türkcə cərideyi-müsəvvəreyi-izhukiyyənin baltalarıdır...“Molla Nəsrəddin”in ələ ala aldığı balta zöhk və xəndə, istehza və rişxənddən, müstəhziyanə şəkilərdən ibarətdir”[16].

Əli bəy Hüseynzadə cəmi üç nömrəsini oxuduğu “Molla Nəsrəddin” jurnalındakı tənqid və gülüşün xarakterini də düzgün müəyyənləşdirmişdir. Müəllifin fikrincə, “yaxşı diqqət edilib, dərin bir nəzərlə baxılırsa, görünər ki, bu zöhk və xəndə ancaq zahiri olub, onun təhtində bol-bol axan göz yaşları gizlidir. Bu xəndənin üzündən pərdeyi rəf etsəniz, mavərasında (arxasında-İ.H.) ahu-zar, giryə və büka görərsiniz... Bu, ürəyi yaş və ələmlə dolu olan “Molla Nəsrəddin” xəndəsidir”.[17]

---

[13] Yaşar Qarayev meyar şəxsiyyətdir. B., “Yazıçı”, 1988, səh. 95-96.

[14] Nizami Cəfərov. Bir millətin iki oğlu, yaxud millət öz oğullar ilə özünə dönür. “Ədəbiyyat və incəsənət” qəzeti., 28 sentyabr 1990, N°37 (2432)

[15] Elçin. Həqiqət, ancaq həqiqət. “Ədəbiyyat və incəsənət” qəzeti, 19 fevral 1988, N98 (2279)

[16] Əli bəy Hüseynzadə. “Molla Nəsrəddin” və “Dəbistan”.“Həyat” qəz., 18 may 1906, N°125

[17] Yenə orada

Məqalədə “Molla Nəsrəddin” jurnalındakı bədii-publisist əsərlərin “böyük bir hünər və istedadla yazıldığı” ayrıca qeyd olunmuşdur. Bundan başqa, “Həyat” qəzetində Əli bəy Hüseynzadənin “Əbdül Nəqqaş” imzası ilə çıxmış “Molla Nəsrəddinə təşəkkür” adlı məqaləsində [18] jurnalın müxtəlif nömrələrində getmiş Marağalı Zeynalabdinin “İbrahim bəyin səyahətnaməsi” romanının motivləri əsasında çəkilmiş şəkillər təhlil edilərək yüksək qiymətləndirilmişdir.

Bütün bunların müqabilində Cəlil Məmmədquluzadə də, öz növbəsində, Əli bəy Hüseynzadənin “Həyat” qəzetindəki ədəbi-publisist məharətini qeyd etməyi özünə borc bilmişdir. Cəlil Məmmədquluzadə Əli bəy Hüseynzadəni “yazıçılıqda çox məharətli” bir şəxs, hətta “möhtərəm yazıçı”, “yazı ustası”[19] adlandırmışdır. Bununla belə, Cəlil Məmmədquluzadə ilə Əli bəy Hüseynzadə arasında müəyyən fikir ayrılığının olması da hələ “Füyuzat”dan qabaq, “Həyat” qəzetinin nəşr etdiyi vaxtdan diqqəti cəlb etməyə başlamışdır. İlk növbədə Əli bəy Hüseynzadənin müsəlmançılıqdan, islamdan ümumi faktor kimi istifadə etmək meyilləri, xüsusən Əhməd bəy Ağaoğlunun radikal islam ideoloqu kimi çıxış etməsi ilə Cəlil Məmmədquluzadənin dünyəvi baxışları arasında fərqli cəhətlər mövcud idi. Məsələnin bu tərəfi “Həyat” qəzetinin ilk nömrəsindən etibarən Mirzə Cəlilin diqqətini cəlb etmişdir. Ədib “Xatiratım” memuarında həmin mətləbi nəzərdə tutaraq yazmışdı: “Onların qəzetlərini (“Həyat” - İ.H.) o yerdə xoşlamadım ki, birinci nömrənin baş məqaləsində möhtərəm qələm sahibləri çox da islamdan və müsəlmançılıqdan dəm vururdular və elə bilirəm ki, səhv eləmərəm, əgər desəm ki, adi islam mübəlliği kimi və şəriət vaizi kimi müsəlman qardaşları islam dinində dəxi sabitqədəm və bərqarar olmağa dəvət edirdilər”.[20] Cəlil Məmmədquluzadəyə görə, “milli intibah dövri” kimi səciyyələnən bir əsrdə yalnız qatı islamçı mövqe ilə qabağa getmək çətindir. Bunu Mirzə Cəlilin ateist olması kimi başa düşmək də yanlış meyldir. Böyük ədib sadəcə olaraq milli dirçəliş, siyasi fırtınalar və tərəqqi dövrünün tələbləri ilə itaətçiliyin, moizəçiliyin, ətalətə və ədəbə çagırışın, axirət xülyalarının uyğun gəlmədiyini aydın şəkildə dərk edirdi.

Daha sonra Əli bəy Hüseynzadənin etnogenezis məsələsində turançı mövqedən çıxış etməsi ilə də Cəlil Məmmədquluzadənin azərbaycançılıq baxışları arasında fərq var idi. Ədib “Həyat” qəzetində dərc etdirdiyi “Türklər kimdir və kimlərdən ibarətdir”[21] adlı məqaləsində türklərin əhatə dairəsini müəyyən bölgələr üzrə qruplaşdırsa da, məsələyə ümumi türkçülük baxımından yanaşmışdır. Cəlil Məmmədquluzadə isə soyköklərdəki birliyi, qohumluğu inkar etməmək şərti ilə konkret tarixi-coğrafi məkanda yerləşən Azərbaycan türkçüluyünü müdafiə və təsdiq edirdi. Onların ədəbi dilə münasibətlərindəki fərqlər də daha çox buradan irəli gəlirdi.

Əslində, türkçülük məsələsində “Molla Nəsrəddin” və “Füyuzat”ın qovuşduğu məqamlar da mövcuddur. Burada fərq daha çox ümuminin və ya xüsusinin müdafiə edilməsində idi. Əli bəy Hüseynzadə ümumi türkçülüyün, turançılığın ideoloqudur. Artıq etiraf olunduğu kimi, onun “zəif cəhəti Azərbaycanı müstəqil hadisə kimi

---

[18] Əbdül Nəqqaş. “Molla Nəsrəddin”ə təşəkkür. “Həyat” qəzeti, 11 iyun 1906, N9125

[19] Cəlil Məmmədquluzadə. Əsərləri, 4 clddə, IV cild, Bakı, 2004, səh. 63

[20] Göstərilən mənbə, səh.63

[21] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir?, “Həyat” qəz. 10 iyun 1905, N°4

görməməsi idi”.[22] Ancaq Bakıda nəşr etdiyi “Həyat” və “Füyuzat” kimi mətbuat orqanları vasitəsilə o, ilk növbədə, Azərbaycanda türkçülük duyğusunu, milli düşüncəni oyandırmağa xidmət göstərmişdir. Ədibin ümumtürk ədəbi dili yaratmaq səylərini də milli dillərin büsbütün unudulması kimi qəbul etmək doğru olmazdı. Əli bəy Hüseynzadə İstanbul ağzını əsas götürmək və onu digər türk xalqlarının dillərindən alınmış ümumişlək sözlər hesabına zənginləşdirməklə eyni kökdən olan qohum bir dil yaratmaq arzusunda idi: “Biz öz müxtəlif şivə və ləhcələrimizi islah və tövhid (birləşdirmə - İ.H.) ilə özümüzə məxsus mədəni və ədəbi bir dil vücuda gətirə biləriz”.[23] Əli bəy Hüseynzadə bu fikirdə idi ki, “bu gün kürreyi-ərz üzərində türk dilindən daha müntəşir (yayılmış - İ.H) bir dil yoxdur”.[24] Ədib ortaq türkcənin xüsusiyyətlərini aşağıdakı kimi izah etmişdir: “Bizə avropalıların lisani-ümumi deyə icad etdikləri nə Volapok, nə də Esperanto lazımdır. Biz öz müxtəlif şivə və ləhcələrimizi islah və tövhid ilə özümüzə məxsus mədəni və ədəbi bir ümumtürk dili vücuda gətirə biliriz”.[25]

Cəlil Məmmədquluzadə də ümumtürk ədəbi dilin formalaşdırılmasının faydalı bir iş olduğunu qəbul edirdi: “Bizim türk tayfaları üçün ümumi bir dil mühüm məsələlərdən biridir... Bəs biz bunu etiraf edirik ki, əvvəl-axır türk kütlələri (oxu: xalqları - İ.H.) üçün ədəbi dil və ümumi imlaya çox böyük ehtiyac vardır. Və etiqadımız da bundadır ki, bir belə dil gec-tez vücuda gələcəkdir”.[26] Lakin Mirzə Cəlil əsrin əvvəllərində əhalisinin böyük əksəriyyəti yazıb-oxumaq bacarmayan Azərbaycanda vahid ədəbi dil yaratmağı zamanı qabaqlamış ideya hesab etmişdir. Yazıçının niyyəti, hər şeydən əvvəl, “açıq ana dilində” yazmaq, geridə qalmış, müsibətlərə düçar edilmiş millətini onun anlaya biləcəyi sadə, adi danışıq dili vasitəsi ilə başa salmaq, oyatmaq, ayağa qaldırmaq idi. Cəlil Məmmədquluzadə yazırdı ki, “o vədə cəmi türk kütlələri üçün ümumi və ədəbi dil məsələsi bizi məşğul edə bilməzdi. Çünki hərənin bir məqsədi və şüarı olan kimi, bizim də şüarımız dil yaratmaq deyildi, ancaq dərdi-dilimizi hal-hazırda camaat başa düşən dildə ona yetirmək idi. Necə ki, yetirdik”.[27]

Bütün bunlar indiyədək mücərrəd şəkildə qələmə verilmiş həmin məsələyə aydınlıq gətirir. Ümumtürk ədəbi dili ideyasını qəbul edən Cəlil Məmmədquluzadə ayrı-ayrı türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının dilini anaların övladlarına beşikdə ikən türk dilində dediyi layla dili olduğunu dəfələrlə nəzərə çatdırmış, “açıq ana dilində” xalqın milli varlığını ifadə etməyi, onunla ünsiyyət qurub düşündürməyi daha faydalı hesab etmişdir.

Əli bəy Hüseynzadə əvvəlcə bir müddət “mən bunları (məqalələrini - İ.H.) ancaq ziyalılar üçün yazıram. Onlar ki, anlayır, kifayətdir”.[28] – deyə özünə haqq qazandırmağa çalışmışdır. Lakin az sonra o, sadə anlaşıqlı dildə yazmağın üstünlüyünü

[22] N.Cəfərov. Bir millətin iki oğlu, yaxud millət öz oğulları ilə özünə dönür. “Ədəbiyyat və incəsənət” qəzeti, 28 sentyabr 1990, N°37 (2432).
[23] Hüseynzadə. Türk dilinin vəzifeyi-mədəniyyəsi. “Füyuzat” jurnalı, 10 fevral 1907, N°9; Şaiq A. Gülzar. B., 1912.
[24] Yenə orada.
[25] Yenə orada
[26] Cəlil Məmmədquluzadə. Əsərləri, IV cild, Bakı, 2004, səh. 72-73
[27] Cəlil Məmmədquluzadə. Əsərləri, IV c., səh.74
[28] Abdulla Şaiq. Xatirələrim., Bakı, 1973, səh. 200

etiraf etməyi özünə borc bilmişdir: "Əli bəy Bakıdan axırıncı dəfə Türkiyəyə köçüb gedən vaxt Tiflisə gəldi ki, buradan Batuma getsin... idarəmizə də təşrif gətirdi….. Söhbət dildən düşdü və möhtərəm ədibimiz mənə belə dedi ki, "yaxşı yazırsınız.." Onun tək bir şəxsdən eşidilən bu sözü mən havayı danışılan sözlərin cərgəsinə qoya bilmərəm. Çünki Əli bəy Hüseynzadə kimi bir yazıçı ustadın məntək bir cavan yazıçıya yazı barəsində dediyi sözü mən ciddi bir söz hesab edəm gərək. Əli bəy mənə dediyi sözü təkrar və təsdiq etdi: "Açıq yazmağı da bacarmaq lazımdır".[29] Bu hadisə Cəlil Məmmədquluzadə ilə Əli bəy Hüseynzadə arasında həm də qarşılıqlı hörmət və ehtiramın, anlaşıqlı bir mövqeyin mövcudluğunu nümayiş etdirir.

Dövlətçilik məsələlərinə münasibətdə də Əli bəy Hüseynzadə ilə Cəlil Məmmədquluzadənin fikirləri haçalanırdı. Belə ki Mirzə Cəlil böyük, vahid və müstəqil Azərbaycanın Məcnunu, Əli bəy isə turançılığın ideoloqu idi.

Tam halda isə bütün bu kimi fərqli düşüncələr mənəvi uçurumlardan deyil, ilk növbədə, hər iki dahi şəxsiyyətin xalqın nicatına fərqli mövqedən yanaşmalarından, XX əsrin əvvəllərindəki ideya mübarizəsi axtarışlarındakı müxtəlif baxışlardan irəli gəlmişdir.

Yuxarıda qeyd edilənlərlə bərabər, Cəlil Məmmədquluzadə ilə Əli bəy Hüseynzadənin baxışlarında yaxın, doğma, ümumi məqamların üstünlük təşkil etdiyini demək lazımdır.

**Əvvəla,** məlum oldugu kimi, Ə.Hüseynzadə və onun mənsub olduğu "İttihad və tərəqqi" partiyası monarxiya rejiminin və Sultan Əbdülhəmid hakimiyyətinin qatı əleyhdarı idi. Əslində, 1903-cü ildə o, "xabi-qəflət" dövrünün hökmdarı saydığı Sultan Əbdülhəmidin təqiblərindən xilas olmaq üçün böyük çətinliklə Bakıya gəlib çıxa bilmişdi. Əli bəyin 1910-cu ildə yenidən Türkiyəyə qayıtmasında da Sultanlıq səltənətinin çökməsi əsas faktorlardan biri idi. O özünün "İntiqad ediyoruz, intiqad olunuruz" adlı məqaləsində Sultan Əbdülhəmid dönəmini qəddarlıq va "başdan-başa ətalət aləmi"adlandırmışdı. Cəlil Məmmədquluzadə də monarxiya üsul-idarəsini, konkret olaraq Sultan Əbdülhəmidin hakimiyyətini kəskin tənqid etmişdir. O, "Molla Nəsrəddin" dərgisində göstərirdi ki, "özünü bütün müsəlmanların xəlifəsi", "Allahın yer üzərində kölgəsi" hesab edən Əbdülhəmid şahın zamanında "Türkiyənin bir sıra yaxşı oğulları Sultan zülmünün qurbanı olmuşdur... Onların təqsiri yalnız xalq azadlığı uğrunda mübarizə aparmaları idi".[30] Ona görə də Cəlil Məmmədquluzadə Türkiyənin çoxmilyonlu əhalisini zülm altında saxlayan Sultan Əbdülhəmid rejiminin yıxılmasını ürəkdən alqışlamışdı.

**İkincisi,** Əli bəy Hüseynzadə də, Cəlil Məmmədquluzadə də hər cür müstəmləkəçiliyin əleyhinə idilər. Cəlil Məmmədquluzadənin bu məsələyə həsr olunmuş çoxlu sayda məqalələrindən yalnız aşağıdakı sətirləri gətirməklə kifayətlənirik: "Mənim Rusiya hökuməti ilə aram yoxdur. Ondan ötəri ki, ayıb olmasın, Cəfərin anasına iki arşın çit alanda da az qalır qarodovoy gəlib desin ki, "niyə polisə xəbər verməmiş arvadına tuman aldın?"

Əli bəy Hüseynzadə də müstəmləkəçiliyin acı nəticələrini görüb-göstərməkdən, mahiyyətini açmaqdan sakınmırdı. Onun "Füyuzat" dərgisində dərc edilmiş "Şüunat"

[29] Cəlil Məmmədquluzadə. Əsərləri, IV c., Bakı, 2004. Səh. 75-76
[30] Əli bəy Hüseynzadə. Şüunat. "Fuyuzat" jurnalı, 26 noyabr 1906, N°3

adlı məqaləsində deyilirdi: “Böyük məvaciblərə alışmış bürokratlar, hüquqi-mümtazə ilə yaşamış əsilzadələr, vase-vase ərazinin mədaxili ilə keçinməyə öyrənmiş mülkədarlar, əmələ və fəhlənin üsərasını istədikləri qədər əmib sormuş sərmayədarlar, lisan və məzhəblərindən bir boyunduruq qayırıb hər kəsin boynuna taxıb öküz kimi oyan-buyana çəkməkdən zövq almış rus ortodoks misyonerləri əsrlərdən bəri nail olmuş olduqları maddi və nəfsani nemətlərdən əl çəkmək istəmirlər. Mübarizənin bu qədər davam edib sürməsi həp bu yüzdəndir... İrəlidəki, önümüzdəki dağ təpəsi keçmiş olduqlarımızın cümləsindən daha bülənddir”.[31]

**Üçüncüsü,** Əli bəy Hüseynzadə və Cəlil Məmmədquluzadənin hər ikisi demokratik dövlət quruculuğunun tərəfdarı idilər. Əli bəyin “Gənc türkçülük nədir”, “Hürriyyət”, “Duma və əhvali-millət” adlı məqalələrində respublika quruluşu, parlamentli dövlət, söz və mətbuat azadlığı, seçkili sistem, siyasi partiyalar yaratmaq və başqa bu kimi demokratik prinsiplər ciddi surətdə müdafiə olunmuşdur. O, Rusiyada hakimiyyətin nəsildən-nəslə keçən hökmdarlar vasitəsilə deyil, “qanuni əsasi” və “heyətiməbusan” vasitəsilə idarə olunması təşəbbüslərini rəğbətlə qarşılayır, Türkiyədə monarxiyanın devrilməsinə çalışanlarla həmfikir olurdu.

Böyük demokrat kimi tanınmış Cəlil Məmmədquluzadə isə həm də demokratiyanın prinsiplərini öz xalqına izah etməyi vətəndaş yazıçının əsas vəzifələrindən biri sayırdı. O yazırdı: “Cümhuriyyət, yəni latınca “Respublika” elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır... Məmləkət müəyyən qanunlarla idarə olunur. O qanunları yazan və təsdiq edən millətin məbusları, yəni vəkilləridir... Məmləkətdə yaşayan nüfusun cəmisi seçkidə iştirak etməlidir... Cümhuriyyət idarəsinin bir zinəti də ... azadlıqdır. Əvvələn - etiqad azadlığı,.. ikincisi – yığıncaq azadlığı... üçüncüsü – birləşmək azadlığı ,.. dördüncüsü - çap eləmək, beşincisi - danışmaq, altıncısı - siyasi partiyalar düzəltmək və yeddinci - dilbir olub, həmtədbir olmaqdır”.[32]

Mənsub olduğu xalqı müstəqil demokratik dövlət uğrunda mübarizəyə səsləyən, onu hazırlayan bu faktlar indiki müstəqil dövlət quruculuğumuz üçün də faydalı və əhəmiyyətlidir.

**Dördüncüsü,** Əli bəy Hüseynzadə də Mirzə Cəlil kimi İrandakı feodal quruluşunu ürək ağrısı ilə qarşılayır, Məşrutə hərəkatına dərin rəğbət bəsləyir, kömək etməyə çalışırdı. Onun “Siyasəti-fürusət” əsəri buna ən parlaq sübutdur.

Cəlil Məmmədquluzadə, “Molla Nəsrəddin” jurnalı və bütövlükdə mollanəsrəddinçilər də Səttərxan hərəkatına dərin rəğbət bəsləmiş, İran monarxiya rejiminə “bir ordudan ziyadə” ağır zərbə vurmuşlar.

**Beşincisi,** Avropa və rus ədəbiyyatı nümunələrini tərcümə edib mənsub olduğu millətə çatdırmaq və müsbət amallarını təbliğ edən məqalələr yazıb dərc etdirmək işinə ədiblərimizin hər ikisi önəm vermiş, vaxt, zəhmət, enerji sərf etməkdə fayda görmüşlər.

**Altıncısı,** Azərbaycan əbiyyatı klassiklərinin əsərlərinin dəyərləndirilməsində də “Molla Nəsrəddin”lə “Füyuzat” dərgisi əksər hallarda vahid mövqedən çıxış edirdi. “Söz mülkünün sultanı” Məhəmməd Füzuli Mirzə Cəlilin qələmində olduğu kimi, füyuzatçıların təsəvvüründə də “dirilik” qazanmışdır.

---

[31] Göstərilən mənbə.

[32] Cəlil Məmmədquluzadə. Əsərləri, IV cild, Bakı, 2004, səh. 193

**Yeddincisi,** müasir Azərbaycan ədəbiyyatına münasibətdə də ortaq nöqtələr, bir-birinə bənzər notlar çoxluq təşkil edirdi. "Molla Nəsrəddin" milli realist ədəbiyyatın, "Füyuzat" isə çağdaş romantik bədii fikrin "ana qucağı" idi. Digər ictimai məsələlərə müraciətdə də Əli bəy və füyuzatçılar təhlil, müqayisə, dəyərləndirmə yolu ilə gedir, mollanəsrəddinçilər isə tənqid, satira, ifşa, məzəmmət üsuluna üstünlük verirdilər. Deməli, Mirzə Cəlillə Əli bəy Hüseynzadənin, "Molla Nəsrəddin"la "Füyuzat"ın dərdi və məramı yaxın və doğma, hətta bir çox məsələlərdə tamamilə eyni, yolları, üsul və vasitələri, yazı tərzləri isə müxtəlif idi. Bütün bunlara görə Mirzə Cəlil Məmmədquluzadə və Əli bəy Hüseynzadə XX əsrin müəyyən fərqli baxışlara malik olan, əksər məsələlərdə ortaq, vahid məcrada qovuşan, birləşən iki fikir nəhəngi, yanaşı qoşa zirvələrdir.

***

"Molla Nəsrəddin" məcmuəsinin baş xəttini müəyyən edən "dağ kimi Şərq istibdadı və Şərq qaranlığı" ilə mübarizə proqramına dünyanın, demək olar ki, əksər türk-müsəlman xalqlarının taleyi daxil idi. Jurnalda Hindistan, Əfqanıstan, Türkiyə, Orta Asiya və Qafqaz türklərinin və Rusiya müsəlmanlarının həyatı və mübarizəsi əks etdirilmişdir. Cəlil Məmmədquluzadə böyük ustalıqla "Molla Nəsrəddin"i türk-müsəlman dünyasının dərdlərinə çarə axtaran və yol göstərən müdrik, uzaqgörən, ayıq-sayıq bir jurnal səviyyəsində nəşr etməyə və yaymağa müvəffəq olmuşdur. Bununla belə, əhatə dairəsinin genişliyinə baxmayaraq, jurnal fəaliyyətinin bütün mərhələlərində İran, Cənubi Azərbaycan mövzusuna geniş meydan vermiş, bu ölkədə baş verən ictimai-siyasi problemləri, milli-mənəvi prosesləri məharətlə işıqlandırmışdır. Bu mənada "Molla Nəsrəddin" jurnalı yalnız Qafqaz türklərinin, daha çox da Şimali Azərbaycan vətəndaşlarının deyil, həm də Cənubi Azərbaycanda yaşayan həmvətənlərin mətbu orqanı olmaq vəzifəsini böyük məsuliyyət və şərəflə yerinə yetirmişdir.

Baş redaktor "Molla Nəsrəddin" jurnalının 7 aprel 1906-ci il tarixdə çıxan ilk nömrəsinin çapdan çıxmasından bir ay sonra "İdarəmizin əhvalatından bir neçə söz" adlı yazıda "Molla Nəsrəddin"in İranın müxtəlif şəhər və vilayətlərində yayılmasından bəhs edərək yazmışdır: "Müştərilərimizin yarıdan çoxu İran əhlidir. Belə ki, Xorasandan başlamış, Tehran, İsfahan, Təbrizə kimi həmən şəhərlərə, habelə kəndlərə on beş mindən ziyadə məcmuəmiz gedir. Bunun on üç min altı yüz doxsanı illik abunə olanlarımızdır. Qalanı tək-tək satılır".[33]

Əsrin əvvəllərində "Molla Nəsrəddin" jurnalının İran mövzusunda ardıcıl üz tutduğu, geniş şərh və müdafiə etdiyi əsas məsələlərdən biri Məşrutə hərəkatı idi. Bundan əvvəl "Molla Nəsrəddin" jurnalı səhifələrinə çıxarılmış "İranda hürriyyət" adlı silsilə yazılar, əslində, Səttərxan hərəkatının proloqu funksiyasını yerinə yetirmiş Məşrutə hərəkatı üçün zəmin hazırlamışdır. "Molla Nəsrəddin" jurnalı Cəlil Məmmədquluzadənin məqalə və felyetonlar, Mirzə Ələkbər Sabirin satiraları ilə Səttərxan hərəkatını nəinki alqışlamış, hətta bir növ idarə etmiş, istiqamətləndirmişdir. Səttərxanı ədalət tərəfinin fədakar təmsilçisi sayan Cəlil Məmmədquluzadə hərəkatın

[33] "Molla Nəsrəddin" jurnalı, 5 may 1906, N9°5, səh. 2.

çətin, böhranlı çağlarında xalqın diqqətini məşrutəçilərə yönəltmiş, “bir millətin dini, namusu, hüququ, vətənini” sarmış təhlükədən xilas etmək naminə kömək əli uzatmağın zəruriliyini nəzərə çarpdırmışdır: “Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır. Axıtmalı qanlarımız, ehsan etməli pullarımız varsa, gözümüzün qarşısında Azərbaycan matəmgahı durur!”.[34] Ona görə də vaxtilə deyildiyi kimi, “Molla Nəsrəddin” ədəbi cəbhəsi nümayəndələrinin bədii-publisist əsərləri, xüsusən də Mirzə Ələkbər Sabirin satiralar İranda milli azadlıq hərəkatının inkişafına ciddi təkan vermişdir.

“Molla Nəsrəddin” jurnalının nəşri Təbrizdə böyük maraqla qarşılanmışdır. Hətta jurnalın birinci sayındakı kəsərli felyetonlar bəhanə gətirilərək, “Molla Nəsrəddin” məcmuəsinin bağlanması haqqında xüsusi əmr verilmişdir. Lakin xalqın təkidi ilə jurnalın nəşrinin davam etdirilməsinə icazə alınmışdır. Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin” jurnalının 1921-ci ildə 8 nömrəsinin Təbrizdə nəşr etdirməsi ümumən İranda və xüsusən Cənubi Azərbaycanda milli-mənəvi özünüdərk və oyanışa, mədəni dirçəlişə özünün böyük töhfəsini vermişdir. 1921-ci ilin fevral-may aylarında İranda çap edilən “Molla Nəsrəddin” jurnalı – “Təbrizdə qəribə gurultuya səbəb olmuş bu jurnal həmişə xalq tərəfindən müdafiə edilmişdir”. (Həmidə Məmmədquluzadə). “Molla Nəsrəddin” Cənubda geniş yayılmış, çoxsaylı abunəçilər qazanmışdır. Son illərdə aparılmış axtarışlar sayəsində məlum olmuşdur ki, “Molla Nəsrəddin” jurnalının dükan-bazarda satılan çoxsaylı nüsxələrindən başqa, Təbriz şəhərində 252, Xoyda 39, Ərdəbildə 35, Marağada 27, Bakıda 14, Miyanəcdə 11, Mərənd, Əhəd və Şahbulağın hər birində 10, Makuda 7, Əfşarda 5, Sərabda 4, Zəncanda, Culfada 3, Dəhqazxan, Şərəfxana, Miyanənəndab 2, Qəzvin, Kirmanşah, Bükan, Səbüstər, Əcəbşəhr, Astara, Bəzirgan şəhərlərinin hərəsinda bir nəfər abunəçiləri olmuşdur.[35]

Jurnal Cənubi Azərbaycandakı əsas yaradıcı qüvvələri öz ətrafında cəmləşdirə bilmiş, Mirzəli Möcüz, İskəndərxan Qəffari Sürxpuş, Əbülfət Ələvi, Seyid Əli Bəhzad, Mirzə Məhəmmədəli Nəqqaş, Hacı Məhəməad Naxçıvani, Cabbar Baxçaban, Əli Azəri və başqalarına yeni imkanlar açmışdır. Nəticədə Cənubi Azərbaycanda realist-satirik ədəbiyyat və mətbuat formalaşmış, milli və ictimai düşüncə geniş tərəqqi tapmışdır.

***

“Molla Nəsrəddin” jurnalının nəşrinin Bakı mərhələsi (1922-1931) də mətbuat tariximizdə silinməz izlər buraxmışdır. Sərt sovet rejimi çərçivəsində belə bu mübariz jurnal öz sözünü deməyi bacarmış, milli mövqedən çıxış etmişdir. Cəlil Məmmədquluzadə ilk əvvəl Şura üsul-idarəsinə “əsl xalq təmsilçisi kimi inanmış”,[36] yeni cəmiyyəti “sidqi ürəklə, qəlbdən gələn bir səslə”[37] bəyənib alqışlamış: “O şey ki

[34] C. Məmmədquluzadə. Necə qan ağlamasın daş bu gün. “Molla Nəsrəddin” jurnalı, 11 yanvar 1909, N°2.
[35] Bax: Təbriz şəhərinin abunə dəftəri. AMEA Əlyazmalar İnstitutunun fondu. A-6, Q-354
[36] R.Əliyev. Cəlil Məmmədquluzadə. Və sovet hakimiyyəti. “Açıq söz” qəzeti, 9 dekabr 1994, N°40 (209).
[37] N.Zeynalov. Molla Nəsrəddin Bakıya gəlir. ADU-nun “Elmi əsərləri” (dil və ədəbiyyat seriyası). B., 1967, səh. 60.

qoca “Molla Nəsrəddin”in qəlbinə və məzacına hər babətdən müvafiqdir - onun adı Şuradır” demişdir.[38] Lakin az sonra cəmiyyətin həyatındakı əyintiləri yaxından izləyən Cəlil Məmmədquluzadə bu fikirdə idi ki, hazırki yeni əsrdə “dünyadan xəbərin olmaya-olmaya beş sütun hətərən-bədərən yazmaq... yalan-palana camaatı müştəbeh etmək”[39] yazıçılıq sayıla bilməz.

Cəlil Məmmədquluzadə sovet hakimiyyətinin “ibtidasında” qəti olaraq belə bir fikrə gəlmişdir ki, “özümüzü boş-boşuna... quru tərif və yalançı alqışlarla yox, məhz acı həqiqəti meydana qoymaqla biz maarif evini abad edə bilərik. Qeyri bir yol yoxdur”[40]. Yazıçı açıq-aşkar görürdü ki, iyirmi il qabaq “Molla Nəsrəddin” jurnalında yan-yana yatışıb uyuyan şəkildə göstərdiyi millət indi də yuxudan ayılmamışdır. Cəhalət, nadanlıq bitib tükənmək əvəzinə “hələ dəm alır”[41] və C.Məmmədquluzadə bu işdə mövcud sovet rejiminin də laqeyid qaldığını hiss etmişdir. Ona görə də ədib ürək ağrısı ilə yazmışdır: “zülmət çox dərindir, qaranlıq, nəhayət, qalındır... Bilmirəm barit atəşimi, bilmirəm maarif topumu, bilmirəm mədəniyyət təkamülü, ya da dinamit inqilabı, ya bəlkə, ikisi də lazım”[42].

Nədən başlamalı sualına Cəlil Məmmədquluzadə ilk növbədə “rəndədən”, daha sonra isə “rişədən” cavabını vermişdir. Rişə dedikdə Mirzə Cəlil, hər şeydən qabaq, ictimai-siyasi əsarətin, mövhumat və cəhalətin bütün təzahürlərini nəzərdə tutmuşdur: “Əsl mətləb rişədədir. Çünki qalan kiçik məsələlər həmin rişəyə bağlıdır... əlifba, çadra, papaq, əmmamə, əba... yaşıl qurşaq, qüsl, təharət... ziyarət, ticarət... və müxtəsər, yenə minlərcə bu qəbil müzəxrəfat (yalan, uydurma işlər – İ.H.), mövhumat və axmaqlıhat”.[43]

Cəlil Məmmədquluzadənin fikrincə, “Əgər rişəni baltalayıb ona zəfər yetirə bilsək, qol-qanad onsuz da öz-özünə quruyub məhv olacaq. Yoxsa nə qədər ki, rişə sağ və salamatdır, ağac hələ də dayanıb duracaqdır”.[44]

Ələxüsus sovet cəmiyyətinin tədricən elan etdiyi yoldan kənara çıxıb, yanlış istiqamətə doğru yönəldilməsi Mirzə Cəlili daha çox narahat edirdi. Baş alıb gedən haqsızlıq, özbaşınalıq, qəddarlıq, hərc-mərclik yeni cəmiyyətə başlanılan ümidlərin tamam əksinə idi.

Cəlil Məmmədquluzadə bu məqamda nicat yolunu cəmiyyətdə hər kəsin öz yerində olmasının təmin edilməsində görürdü: “Nə olardı, hər bir şey öz yerində olaydı: məktəbdə müdərrislik edən dükanda olamayaydı; çəkməçi öz çəkməçiliyinə məşğul olaydı, zərgər də öz zərgərliyinə. Çünki elə olsaydı, baş qanamazdı və körpü uçmazdı.

Həmçinin nə olardı ki, firqədən kənarda qalanların bir parçası firqədə olaydı və firqəyə daxil olanların bir para yaramazları firqədə olmayaydılar”.[45]

Cəlil Məmmədquluzadənin göstərilən mərhələdəki felyeton və məqalələrində cəmiyyətdəki lazımınca əsaslandırılmamış özünütənqid şüarının şəxsi qərəzliyə geniş

---

[38] Cəlil Məmmədquluzadə. Şura. “Molla Nəsrəddin”, 1922, N°1.
[39] Cəlil Məmmədquluzadə. Bir növ yazıçı. “Molla Nəsrəddin” jurnal. Bakı, 7 dekabr 1922, N°5.
[40] Cəlil Məmmədquluzadə. Rəndə. “Molla Nəsrəddin” jurnalı, 9 noyabr 1922, N°2.
[41] Cəlil Məmmədquluzadə. Hələ dəm alır. “Molla Nəsrəddin” jurnalı, 26 sentyabr, 1925, N°39
[42] Cəlil Məmmədquluzadə. İnqilab lazım. “Yeni yol” qəz., 1922, N°10
[43] Cəlil Məmmədquluzadə. Rişə. “Molla Nəsrəddin” jurnalı, 8 noyabr 1928
[44] Yenə orada
[45] Cəlil Məmmədquluzadə. Olaydı-olmayaydı. “Molla Nəsrəddin” jurnalı, 17 oktyabr 1929, N°42.

meydan açması, yenilik pərdəsi altında eybəcər, milli xüsusiyyətlərimizlə uyğun gəlməyən tədbirlərin icra olunması kəskin tənqid hədəfinə çevrilmişdir. Ədib acıqlı-acıqlı yazmağa məcbur olmuşdu ki: "Əvvələn, ata-babadan qalma küftəmizin adını dəyişib "kufta" eləmiyək; Azərbaycan kəndlisinin başından motal papağı götürüb, onun qırxıq başına firəng şlyapası qoymayaq; Qaryağdıoğlu xanəndənin məclisinə tarzən Qurbanın əvəzinə Şərq musiqisinə aşina olmayan mandalina çalan əyləşdirməyək."[46]

Nəticə etibarilə Cəlil Məmmədquluzadə bütün bunların günahlarının "öz tutduqları bəd hərəkətləri ilə" xalqı mövcud üsul-idarədən "iyrəndirən", qəzəb və etiraz doğuran "Şura işçilərində" olduğu qənaətinə gəlmişdir. Bu isə onun, həm də cəmiyyətin içəridən – daxildən çürüməsi prosesinin başladığını görməsi və göstərməsi demək idi. Bütün bunlara görə "Molla Nəsrəddin" jurnalında və ədibin əsərlərindəki tənqidin mahiyyəti ya lazımınca dərk olunmamış, ya da qəsdən yanlış şəkildə yozulmuşdur. Nəticədə Vətənə və millətinə, habelə yeni cəmiyyətə sadiq olan Mirzə Cəlil təqib və sıxıntılara, "mənəvi terrora" məruz qalmışdır. Ona görə də Cəlil Məmmədquluzadə həyatının "son illərində təqiblər, anlaşılmazlıq şəraitində" [47] yaşayıb-yaratmışdır. Ədibin həyatının 1929-1932-ci illərini əhatə edən son dövrü haqsızlıq, çaşqınlıq, diqqətsizlik, laqeydlik, tənhalıq girdabında keçmişdir.

Doğrudur, hələ iyirminci illərin başlanğıcı və ortalarında da Cəlil Məmmədquluzadə haqsız tənqidlərin, soyuq münasibətin ayr-ayrı təzahürləri ilə rastlaşmışdı. Məsələn, 7 noyabr 1922-ci il tarixdə Bakıda görkəmli satirik şair M.Ə.Sabirin heykəlinin açılış mərasiminə onu dəvət etməyi "unutmuşdular". Ədib heysiyyatına toxunan bu gözlənilməz "tasadüf" haqqında giley-güzarını aşağıdakı şəkildə yazmışdı: "Bu yığıncaqda gözə çarpan bircə əksiklik var idi. O da bu idi ki, Sabirin təbinin atının iti qaçışına gözəl və geniş meydan hazırlayan Molla Nəsrəddin orada görsənmirdi. Çünki bu açılışın nə vaxt olması xəbərini ona heç bildirməmişdilər".[48]

Bundan başqa, 1925-1927-ci illərin dövri mətbuatında ara-sıra Cəlil Məmmədquluzadəni və "Molla Nəsrəddin" jurnalını həyatla ayaqlaşa bilməməkdə təqsirləndirmişlər. [49] Eyni zamanda yazıçının əsərlərinin ideya-bədii məziyyətlərinin müəyyən səviyyədə təhrif edilməsi hallarına, az da olsa, rast gəlinirdi.[50] Hətta Mirzə Cəlilin hekayələrinin dili də haqsız tənqidə məruz qalmışdır. "Məzkur hekayənin dili ("Quzu" adlı hekayəsi nəzərdə tutulur - İ.H.) çox bərbad olmaqla, özü özlüyündə bir sey də ifadə etmir və ona görə də bunun qiraət kitabına daxil edilməsi... mənasızdır".[51]

Birinci mərhələdə ən ciddi və nisbətən uzun sürən çəkişmə "Molla Nəsrəddin" məcmuəsinin fəaliyyətindəki bəzi motivlərlə bağlı olmuşdur. Bu dövrdə jurnalın öz çoxillik ənənəsinə sadiq qalaraq, İran mövzusunda dərc etdiyi tənqidi-satirik materiallar ictimai mühitdə Cəlil Məmmədquluzadənin qonşu dövlətlə münasibətləri korlamaq cəhdi kimi ciddi narahatlıq doğurmuşdur. İş o yerə gəlib çatmışdır ki, Azərbaycan K(b) P Rəyasət heyəti 26 aprel 1926-c il tarixdə ayrıca qərar qəbul edərək

---

[46] Cəlil Məmmədquluzadə. Dinc ol, səbrini dər. "Molla Nəsrəddin", 14 mart, N°12.
[47] Anar. Anlamaq dərdi, Bax: "Dünya bir pəncərədir" kitabı. B., "Gənclik", 1986, səh. 252.
[48] Cəlil Məmmədquluzadə. Heykəl açılışı. "Yeni yol" qəzeti, 25 noyabr 1922, N°10.
[49] Tənqidçi. Biblioqrafiya. "Kommunist" qəzeti, 4 sentyabr 1925.
[50] Tənqidçi. Balıqmı, balıxmı? "Kommunist" qəzeti, 17 noyabr 1925
[51] Məmməd Zəki. Ədəbiyyat dərsləri. Kommunist" qəzeti, 23 noyabr 1927.

Əliheydər Qarayevə tapşırmışdır ki, “redaktor ilə danışıb, jurnalın İran hökumətinə, xüsusilə, Rza şaha qarşı tutduğu mövqeyi yumşaltsın”.[52]

Lakin bununla iş bitməmiş, “Molla Nəsrəddin"in İrana, Rza şaha münasibəti təhrif olunmuş formada Moskvanın yuxarı dairələrinə çatdırılmışdır. Hətta ümumittifaq səviyyəli yığıncaqların birində SSRİ Xalq Xarici İşlər Komissarı G.V.Çiçerin cənabları bunu “İranla dostluğumuzu pozmaq” sayı hesab etmişdir. Azərbaycan Respublikasının rəsmi dairələri məsələyə aydınlıq gətirmək məqsədilə mötəbər bir partiya məclisində həmin mövzuda söhbət aparmışdır. Ruhulla Axundovun məruzəsində cavab xarakteri daşıyan aşağıdakı mülahizələr söylənilmişdir: “Bir də mən Çiçerin yoldaşın “Molla Nəsrəddin” məcmuəsinə qarşı rəftarına təəccüb etmək istərdim... Bu məcmuə həyata gəldiyi gündən etibarən - iyirmi ildən bəri... İran mütləqiyyətinə qarşı mübarizə aparır... Şura hökuməti zamanında isə bu məcmuədə İran feodallarının yaramaz qaydalarına qarşı əhəmiyyətsiz bir məqalə görünər-görünməz Çiçerin yoldaş deyir ki, bu bizim İranla dostluğumuzu pozmaqdır. Buna yol vermək olmaz. Bu, yaramaz”.[53]

Bu məsələ ilə bağlı daha artıq hünər və cəsarəti Cəlil Məmmədquluzadənin özündə də görmək mümkündür. Belə ki ədib İran mövzusunda qələmə aldığı bir məqalədə əvvəlcədən bunları qeyd etməyi lazım bilmişdir: “Bu məqalə Tehrana gedib çatan kimi, yəqin ki, yenə şah həzrətləri yapışacaq Moskvanın yaxasından. Lakin əbəs yerə. Səbəbi budur ki, “Molla Nəsrəddin” məcmuəsinin Moskvaya heç bir dəxli yoxdur. “Molla Nəsrəddin”i nə Moskva yaradıbdır və nə də Şura hökuməti varadıbdır. Bu, bitərəf vərəqdir ki, iyirmi iki il bundan qabaq şahlar, sultanlar və krallar ilə söhbət eləməyə adətkərdə olubdur”.[54]

Belə cəsarətli və açıq çıxışları ilə Cəlil Məmmədquluzadə bir daha sübut etmişdir ki, “ideya adamı” olduğu halda mövcud rejimin “ideologiya adamı”[55] deyildir. Müstəqildir, bütöv məslək sahibidir. Ona görə də sovet hakimiyyətinin ilk dövründə o bu cür hallara qarşı bir qədər soyuqqanlı yanaşmış, bəzən də mənasız təsadüflər kimi baxmış, dözümlülük göstərərək cavabsız buraxmışdır. Az sonra isə belə təqib və tənqidlər ardıcıl, sistemli şəkil almış, genişlənmiş və dərinləşmişdir. Artıq 1929-cu ildən etibarən Cəlil Məmmədquluzadə ona qarşı yönəlmiş ittihamların tək-tək müəlliflərin münasibəti deyil, yuxarılarda təşkil olunmuş məqsədyönlü “tədbirlər” olduğu qənaətinə gəlmişdir. Onun həyatında “Molla Nəsrəddin” jurnalının fəaliyyətində təqiblər və məhdudiyyətlər dövrü, mərhələsi başlanmışdır.

Bu cəhətdən Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin 9 aprel 1929-cu il tarixində keçirilən plenumu Cəlil Məmmədquluzadə üçün ağır mənəvi gərginlik dövrünün başlanmasına start verilməsinə çevrilmişdir. Belə ki “Dini xurafatla mübarizədə respublika partiya təşkilatının vəzifələri haqqında” məsələ müzakirə edən plenumun qətnaməsinə “Molla Nəsrəddin” jurnalının “din əleyhinə oxunaqlı, kütləvi, ucuz jurnal kimi yenidən təşkil edilməsinə” dair ayrıca bir

---

[52] Qulam Məmmədli. Molla Nəsrəddin (salname). B., “Gənclik”, 1984, səh. 449.

[53] Yenə orada

[54] Cəlil Məmmədquluzadə. Mətbuat bayramı, yaxud tacgüzarlıq. “Molla Nəsrəddin”, 5 may 1927, N°19.

[55] Nizami Cəfərov. Mirzə Cəlil: ona qədər və ondan sonra. “Azadlıq” qəzeti, 6 dekabr 1994, N°110 (477).

təklif daxil edilmişdir.[56] Bundan basqa, Allahsızlar ittifaqının işini gücləndirmək, "Azərbaycan dilində din əleyhinə müntəzəm işi qaydaya salmaq və genişləndirmək"[57] məqsədilə "Molla Nəsrəddin" jurnalının həmin cəmiyyətin mətbu orqanına çevrilməsi tövsiyə olunmuşdur. Bu yolla ictimai həyatın bütün sahələrinə nüfuz etmək imkanına malik olan jurnalın fəaliyyət dairəsi məhdudlaşdırılmış, yalnız din əleyhinə mübarizə orqanı kimi nəşr edilməsi lazım bilinmişdir.

Bu, Cəlil Məmmədquluzadəyə qarşı əsl mənəvi terror, namərdcəsinə arxadan vurulan ağır zərbə idi.

Cəlil Məmmədquluzadənin 1929-cu ilin may-avqust ayları ərzində çap etdirdiyi ideoloji xarakterli "Şura mətbuatı", yaxud "Dinsizdirlərmi Azərbaycan kəndliləri", "Dindarlığın axır nəfəsi", "Din və millət" qəbilindən olan ateist ruhlu məqalələri də diqqətdən kənarda qalmışdır. Əvəzində göstərilən qərar heç bir müzakirəyə yol verilmədən dərhal birmənalı şəkildə müdafiə olunmuşdur. Rza Axundov adlı müəllif plenumdan sonra dərc etdirdiyi məqaləsində bu məsələyə münasibətini aşağıdakı kimi bildirmişdi: "Türk dilində lazimi ədəbiyyat olmadığından bu cəbhədə (ateizm sahəsində - İ.H.) işlər bir qədər çətinləşir. Fəqət bu çətinlikləri dəf etməliyik. Azərbaycan KP MK-nin aprel plenumu "Molla Nəsrəddin" jurnalını din əleyhinə mübarizə jurnalına çevirmək, onun vasitəsilə qəti surətdə geniş təbliğat aparmaq lazım olduğuna qərar verməkdə pək haqlıdır".[58] Az keçməmiş dövri mətbuatda aprel plenumunun tezislərini qüvvətləndirmək məqsədilə Cəlil Məmmədquluzadəni "Milli xırda burjua ədəbiyyatı nümayəndəsi", "cığırdaş"[59] kimi qələmə verməyə başlamışlar.

"Molla Nəsrəddin" jurnalının dili, sadəcə olaraq, qüsurlu deyil, bərbad hesab edilmişdir: "Dəfələrlə qeyd etdiyim kimi, "Molla Nəsrəddin"in dili bərbaddır. "Molla Nəsrəddin" məcmuəsi tədricən dilini dəyişdirməli və bugünkü ədəbi dilimizlə uyğunlaşdırmalıdır".[60]

Bəzi ittihamlar daha sərt və ədalətsiz idi: "Fəqət Məmmədquluzadə yoldaşın indiki mühitin tələbatını təmindən aciz olduğunu da danmaq olmaz. Bunu "Molla Nəsrəddin"in son illər ədəbi həyatındakı durğunluq da təsdiq edir. Söz birdir: Məcmuə şəkil, bədii-ictimai cəhətdən, başqa sözlə, üzlü-astarlı dəyişdirilməlidir."[61]

N. Nəsir adlı müəllifin "Yeni qüvvələr cəlb edilməlidir" məqaləsində "Molla Nəsrəddin"in, əsasən, köhnə yazıçılar tərəfindən idarə olunduğu, jurnala yeni fəhlə-kəndli müxbirlərin cəlb edilmədiyi şişirdilmiş şəkildə nəzərə çarpdırılmışdır. Əlbəttə, bu məqalələr partiyanın aprel plenumuna cavab kimi meydana çıxmış, yuxarıdan başlamış əks-təbliğat kampaniyasının tərkibində icra olunmuşdu. Həmin vəziyyət 1930-cu ilin əvvəllərinə qədər ardıcıl davam etdirilmişdir. "İnqilab və mədəniyyət" jurnalının yanvar sayında İlya Dubinski "Molla Nəsrəddin"in din əleyhinə mübarizədə lazımi qətiyyət göstərmədiyini nəzərə çarpdırmış, qəti tədbirlər görülməsini zəruri saymışdır: "Qəribə bir faktı qeyd edəlim. Şuralar Azərbaycanda liberal və azad fikirli

[56] Azərbaycan KP-nın qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. 1 c., Bakı, Azərnəşr, 1987, s. 492.
[57] Bax: "Kommunist" qəzeti, 12 may 1929.
[58] Bax: "Zarya Vostoka" qəzeti., Tiflis, 12 noyabr 1929
[59] Əli Vəliyev. "Molla Nəsrəddin" məcmuəsinin islah etməli... "Kommunist" qəzeti, 12 novabr 1929
[60] Əliyar Qarabağlı. "Molla Nəsrəddin"i ittiham etmək vaxtıdır. "Kommunist" qəzeti, 18 noyabr 1929
[61] İlya Dubinski İ.Dinlə mübarizə cəbhəsində. "İnqilab və mədəniyyəti" jurnal, 1930, №1

“Molla Nəsrəddin” məcmuəsi nəşr olunur. Məcmuənin nəşri üçün kifayət qədər vəsait buraxılır. Lakin bu məcmuə əsl həqiqətdə öz redaktorunun orqanıdır.

Elə güman edirik ki, bu keyfiyyətə nəhayət veriləcək və nəticə etibarilə mübariz allahsız işçi sinfinin öz məcmuəsi, orqanı düzələcəkdir”.[62]

Yeri gəlmişkən deyək ki, bu həmin Dubinski idi ki, Cəlil Məmmədquluzadə hələ bir il əvvəl “Molla Nəsrəddin” jurnalında ona “allahsızlar cəmiyyəti mübəlliği” ifadəsi ilə ehtiyatla sataşmışdı. [63] Cəmiyyətin ümumittifaq şurasının Azərbaycandakı nümayəndəsi olan bu şəxs aprel plenumunun məlum qətnaməsindən istifadə edərək Mirzə Cəlildən qisas almaq fürsətini əldən verməmişdir. Nəhayət, bütün bunlardan sonra Cəlil Məmmədquluzadə 8 fevral 1930-cu il tarixdə Azərbaycan KP MK katibliyinə məktub yazaraq, “Molla Nəsrəddin” jurnalının “Allahsız” adlandırılmasının məqsədəuyğun olmadığını göstərmiş, keçmiş xidmətlərini nəzərə almaqla jurnalın öz adı ilə nəşr edilməsinə icazə verilməsini xahiş etmişdir. Lakin göstərilən izahat və xahişlər nəticəsiz qalmışdır. Nəinki bundan sonra müsbət bir cavab olmamış, əksinə, “Molla Nəsrəddin” haqqında təhqiqat aparılması gizli şəkildə daha da dərinləşdirilmişdir. 1931-ci ilin əvvəllərində Azərbaycan SSR Xalq Maarif Komissarlığının elm, incəsənət və ədəbiyyat bölməsinin rəhbəri İ.Bukilpan yoldaşa göndərilmiş “Molla Nəsrəddin” jurnalının vəziyyəti və yaradıcılıq yolu haqqında məlumat vərəqəsi həmin qeyri-sağlam münasibətə bariz nümunədir. Azərbaycan SSR baş Mətbuat idarəsinin müvəkkili İbad Əliyevin imzaladığı təxminən dörd səhifəlik bu “məlumat vərəqəsi”[64] başdan-başa böhtan, təhqir, qarayaxma və haqsız ittihamlardan ibarətdir. Burada Cəlil Məmmədquluzadə və redaksiyanın digər əməkdaşlarını “siyasi cəhətdən geri qalmış, bisavad və siyasətlə maraqlanmayan adamlar” adlandırmışlar. Hətta “Molla Nəsrəddin” jurnalının bədii tərtibatçısı Ə.Əzimzadə “sinfi mübarizə və sosializm quruculuğu epoxasının obrazını verməyi bacarmayan istedadsız rəssam”[65] hesab edilmişdir. Danosçu, Cəlil Məmmədquluzadəni və jurnal yeni cəmiyyətin əsas siyasi tələblərindən kənarda qalmaqda günahlandırmışdır. “Məlumat vərəqi”ndə oxuyuruq: “Orada (jurnalda - İ.H.) beşilliyi dörd ildə yerinə yetirmək uğrunda, neft, pambıq, istiqraz uğrunda mübarizə kimi təsərrüfat-siyasi əhəmiyyətə malik növbəti və gündəlik partiya və sovet hakimiyyəti məsələləri qətiyyən əks olunmamışdır. Həmçinin partiyanın baş xətti uğrunda mübarizə, “sag-solçu” bloklarla, sənayenin müxtəlif sahələrindəki zərərvericiliklə mübarizə, kənddə sinfi mübarizə və s. əks edilməmiş gəlmişdir. Bununla jurnal kobud siyasi səhv etmiş və səhv etməkdə davam edir.

… Jurnalın götürdüyü bu yol açıq-aşkar opportunist və partiyanın baş xətti ilə heç bir əlaqəsi olmayan bir yol kimi qiymətləndirilməlidir”.[66]

Bu cür ağır siyasi ittihamlarla kifayətlənməyən İbad Əliyev “Molla Nəsrəddin”dəki yazılarin “Sovet hakimiyyətinə və məsul yoldaşlara istehzadan” yoğrulduğunu da xüsusi olaraq vurğulamışdır. Əslində, bədnam 37-ci ilin danoslarından bir

[62] Bax: Qulam Məmmədli “Molla Nəsrəddin” 9 (salnamə), s. 499

[63] Cəlil Məmmədquluzadə. Tiryək. “Molla Nəsrəddin” jurnalı, 19 aprel 1928, N°6

[64] İbad Əliyev. “Molla Nəsrəddin” jurnalının vəziyyəti və “yaradıcılıq yolu” haqqında məlumat vərərqəsi. Azərbaycan MDTA, f. 57, siy. 1, iş 916, v. 28.

[65] Yenə orada, v. 27.

[66] Göstərilən mənbə

qədər də kəskin səslənən bu "məlumatla" nəinki "Molla Nəsrəddin" jurnalının bağlanması işi həll edilmiş, hətta Cəlil Məmmədquluzadənin də ictimai-ədəbi mühitdəki öncüllük mövqeyinə xitam verilmişdir. Mirzə Cəlilin yuxarı təşkilatlara ünvanlandığı yazılara, təklif və xahişlərə mahal qoyulmamışdır. Ədibin "Molla Nəsrəddin"in proqramı və məqsədi" adlandırdığı və Azərbaycan KP MK və Bakı komitəsinin mətbuat söbəsinə göndərilmiş 481 nömrəli təqdimatda nəzərə çarpdırılmış proqram məxsusi dönüş və vəziyyətdən çıxış yoluna çevrilə bilməmişdir. Baş redaktorun təklif etdiyi yeni proqram isə onun məsləkini ifadə etməyib, daha çox özünümüdafiə xarakteri daşıyırdı. C.Məmmədquluzadənin ürəyindən qopmayıb, yalnız "qələmindən" çıxmış "proqramda" deyilirdi: "1931-ci ilin əvvəlindən "Molla Nəsrəddin" fəhlələrdən, kasıblardan, batraklardan və təhsil alan gənclərdən ibarət daha geniş oxucu kütləsinə tərəf dönür. Jurnal bu illərdən öz işini əsas etibarilə ateizm sahəsində gücləndirir, əhalinin türk hissəsi arasında fanatizm, kütlük və cəhalətə qarşı mübarizəyə rəhbərlik edir. Keçirilən bütün siyasi kampaniyalarda fəal iştiraka qoşulur. Azərbaycan kənd təsərrüfatı həyatında isə "Molla Nəsrəddin" kolxoz quruculuğu ideyasını geniş təbliğ edir".[67]

Baş redaktorun yeni cəmiyyətin ab-havası üstündə köklənmiş təzə iş "proqrami" da qəbul edilməmiş, jurnalın nəşr xərcləri üçün tələb olunan cəmi 6 min 44 manatlıq dövlət yardımı verilməmişdir. Beləliklə, 1931-ci ildə cəmi üç nömrə çap edildikdən sonra "Molla Nəsrəddin" jurnalı həmişəlik bağlanmışdır. Cəlil Məmmədquluzadə bununla özünün əsl mübarizə silahı və xitabat kürsüsündən məhrum edilmişdir. Təkcə "Molla Nəsrəddin" jurnalının deyil, Cəlil Məmmədquluzadənin özünün də yaradıcılıq fəaliyyəti əsasən dayanmışdır. Ömrü boyu qaynar fəaliyyətlə, iş-güclə, qayğılarla əhatə olunan qocaman yazıçı birdən-birə bekarçılığın, gərəksizliyin, tənhalığın, laqeydliyin burulğanına düşmüşdür.

Göstərilənləri nəzərə almaqla, ədəbi tənqidin "Mirzə Cəlil özü də repressiyanın ilk qurbanlarından olmuşdur"[68] mülahizəsinə haqq qazandırmaq lazım gəlir. Çünki 1931-1932-ci illərdə ədibin həyatında şübhə və sarsıntılar daha da çoxalmış, onu surətlə faciəli sonluğa yaxınlaşdırmışdır.

Qocaman ədib və ictimai xadimin şəxsi həyatı da göstərilən mərhələdə ağır keçmişdir. 1929-cu ildə bəy qızı oldugu üçün Həmidə xanım Məmmədquluzadənin səsvermə hüququndan məhrum edilməsi onun həyatında müəyyən gərginlik yaratmışdır. Bundan başqa, yazıçının maddi vəziyyətinin ağırlaşması da ona mənfi təsir etmişdir. Həmidə xanımın 1931-ci ilin may ayında oğlu Midhata göndərdiyi məktubların birində deyilir: "Atan daha maaş almayacaq, 180 manat təqaüd isə onun heç özünə çatmayacaq... Pulun çatmaması onun əhvalına pis təsir eləyir. Ərzağın qiyməti isə artmaqdadır... O, tamam tək qalıb".[69]

Cəlil Məmmədquluzadə 1930-cu ildə maddi imkanı çatmadığı üçün sanatoriyada müalicə olunmaq niyyəti ilə cüzi vəsaitdən ötrü Azərbaycan Xalq Komissarlar Şurasına

---

[67] Cəlil Məmmədquluzadə. "Molla Nəsrəddin"in proqramı və məqsədi. AMEA Əlyazmalar institutunun fondu. A-6, siyahı 1.
Saxlama vahidi 330.
[68] B.Əhmədov. "Molla Nəsrəddin niyə bağlandı". "Ədəbiyyat" qəzeti. 1 fevral 1991, N°5 (2452)
[69] Mirzə Cəlil və Məmmədquluzadələr. Məktublaşma (toplayanı və tərtibi, sözardının müəllifi və çapa hazırlayanı İsa Həbibbəyli). Bakı, "Çinar-çap", 2003, səh. 147.

xahişnamə göndərmişdir. O, 1931-ci ildə oğlu Midhata palto almağa pul tapa bilməmişdir. "Cib dəftəri"ndə rusca yazılmış aşağıdakı qeydlərdən görünür ki, Mirzə Cəlil gündəlik xərclərin, bazarlığın ciddi uçotunu aparmalı olmuşdur. "Moloko- 2 rub, maslo- 7 rub, pomidor- 1 rub. 50 kop, kofe- 2.20, xleb- 1 r., alma- 1.50, qruşi - 2 r"[70]

Yazıçı qış fəslində evini qızdırmağa vəsaiti və imkanı olmamış və bu səbəbdən də əlyazmalarını sobada yandırmaqdan özgə çarəsi qalmamışdır. Bu, keşməkeşli ömrün tale dramının acı səhnəsidir. Əlyazmalarını yandırmaq həm də ictimai mühitə etirazın bir forması idi. Həmidə xanım həmin təsirli səhnəni aşağıdakı kimi xatırlayır: "Dekabr gecələrinin birində odunumuz qurtarmışdı ... O, böyük kağız bağlamalarını, müxtəlif qaralamaları sobaya atıb yandırdı. Bu zaman o, çox əsəbi idi. Mən ona heç bir söz deyə bilmirdim. Kənarda dayanıb ürək ağrısı ilə tamaşa edirdim".[71]

Ustad sənətkarın 4 yanvar 1932-ci il tarixdə vəfatı Azərbaycanda soyuq qarşılanmışdır. Cəlil Məmmədquluzadənin dəfnində hökumətin tanınmış nümayəndələri iştirak etməmişdilər. Mirza Cəlilin dəfn mərasimi, əsasən, mollanəsrəddinci ədəbi qüvvələrin, ziyalılarin və ona böyük ehtiram bəsləyən zəhmətkeş xalqın, sadə insanların hesabına təşkil olunub keçirilmişdir. Hətta qəzetlərdə Mirzə Cəlil Məmmədquluzadə haqqında verilmiş nekroloqlarda adlar, imzalar qeyd olunmamış, bir çox qəzetlər isə yazıçının şəklini belə çap etməmişdi. Böyük ədib barədəki nekroloqlar cəmi 7-8 cümlədən ibarət idi və bu nekroloqlarda tənqidi fikirlər də ifadə olunurdu. Nümunə üçün "Bakinskiy raboçiy" qəzetində şəkilsiz dərc edilən nekroloqu olduğu kimi təqdim etməyi lazım bildik:

"Умер Молла Насреддин. 4 января скончался известный тюркский журналист и драматург, редактор сатирического журнала "Молла Насреддин" - Джалил Мамед Кули-Заде.

Молла Насреддин (таков литературный псевдоним Джалил Мамед Кули-Заде) - один из типичных представителей той группы демократической мелкобуржуазной тюркской интеллигенции, которая выступила после революции 1905 г., как близкий попутчик рабочего класса. В своем журнале он бичевал суеверия, бытовые пережитки, феодальные отношения, разоблачая духовенство, тюркскую буржуазию и колониальную политику царской России.

В условиях советской действительности Молла Насреддин оказался отставшим от бурных темпов развития социалистического строительства. Журнал его в значительной мере потерял свое значение.

Недавно журнал "Молла Насреддин" был реорганизован в боевой орган воинствующих безбожников – "Аллахсыз".

От похоронной комиссии

Доводится до сведения всех организаций о том, что тело МОЛЛА НАСРЕДДИНА будет вынесено сегодня 6 января, в 1 час дня из помещения ДРП

Пред. Пох. ком. И.Эминбейли".[72]

Bununla belə, Cəlil Məmmədquluzadəyə xalqın münasibəti dəyişməmişdir. Sibirdə sürgün həyatı keçirən "Şikəstə" təxəllüslü el şairi Şirin Bağırbəyovun Mirzə

---

[70] C.Məmmədquluzadə. Cib dəftəri. Əlyazmalar İnstitutunun fondu, A-6, Q-32 (675), inv. 31994, v. 7

[71] Həmidə xanım Məmmədquluzadə. Mirzə Cəlil haqqında xatirələrim. Bakı, "Gənclik", 1981, səh. 89.

[72] "Bakinskiy raboçiy" qəzeti, 6 yanvar 1932.

Cəlilin vəfatından doğan düşüncələrini əks etdirən, çətin şəraitdə Həmidə Xanım Məmmədquluzadəyə göndərilmiş aşağıdakı şeir parçalar bu ümumxalq ehtiramını çox dolğun ifadə edir.

*Ey Mirzə Cəlil, ey Vətənin nurlu çırağı.*
*Verdin canını millətə, ey sahibi-rüfət.*
*Nə oldu sənə qəfil çəkdin bizə belə dağı,*
*Ey dahiyi-millət, çox çəkdin əziyyət,*
*Yat qəbrdə rahət!*

*...Sən getdinsə, millətə qoydun çox əsərlər,*
*Bağında bitirdin neçə cür tazə səmərlər.*
*Jurnal-qəzetinlə doludur kənd və şəhərlər,*
*Ey dahiyi millət, çox çəkdin əziyyət*
*Yat qəbrdə rahat!*[73]

***

Azərbaycan ədəbiyyatının və mətbuatının tarixində "Molla Nəsrəddin" jurnalı xüsusi ədəbi məktəb yaratmış ilk mətbuat orqanıdır. Digər ədəbi məktəblərdən fərqli olaraq, "Molla Nəsrəddin" ədəbi məktəbi əksər yaradıcılıq istiqamətlərini və janrları, ictimai fikri, hətta rəssamlıq sənətini də özündə cəmləşdirir. Özündən əvvəl və sonra yaranmış heç bir ədəbi məktəb "Molla Nəsrəddin" ədəbi məktəbi qədər eyni vaxtda bu qədər çox yazıçını, şairi və rəssamı öz ətrafında birləşdirə bilməmişdir. Cəlil Məmmədquluzadənin ardıcıl və böyük səyləri sayəsində XX əsrin əvvəllərində Azərbaycan yaradıcı ziyalılarının "Molla Nəsrəddin" ordusu formalaşmışdır. Bu mübariz, demokratik və milli ziyalı ordusunun baş komandanı görkəmli Azərbaycan yazıçısı Mirzə Cəlil Məmmədquluzadə idi. Böyük mollanəsrəddinçi yazıçı Əbdürrəhim bəy Haqverdiyevin vaxtilə etiraf etdiyi kimi, bu ədəbi cəbhədə təb və istedad yaradıcı qüvvələrin özlərinə məxsus olsa da, "mövzu verən və yol göstərən" Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı idi. Geniş mənada "Molla Nəsrəddin" jurnalı tənqidi-realist ədəbiyyatın möhkəm ədəbi cəbhəsini öz ətrafında birləşdirmişdir.

"Molla Nəsrəddin" jurnalına qədər Azərbaycanda və Şərqdə yalnız görkəmli sənətkarların adı ilə bağlı olan ədəbi məktəblər mövcud idi. Nizami ədəbi məktəbi, Məhəmməd Füzuli, Əlişir Nəvai, Mirzə Fətəli Axundzadə ədəbi məktəbləri daha çox özündən sonrakı davamçılarının sayəsində yaranıb formalaşmışdır. Amma "Molla Nəsrəddin"in timsalında ilk dəfə idi ki, konkret bir mətbuat orqanının ətrafında cəmləşən yaradıcı qüvvələr əsasında müstəqil ədəbi məktəb formalaşırdı. Bu təkcə Azərbaycanda deyil, ümumən türk-müsəlman dünyasında ayrıca bir mətbuat orqanının adı ilə bağlı olan birinci ədəbi məktəb idi. "Füyuzat" ədəbi məktəbinin meydana

[73] Şərif Bağırbəyov. Mərhum Mirzə Cəlilin vəfatı münasibətilə yazılmış matəmi şeiri. Bax. Əlyazmalar institutunun fondu. A-6, Q-633

çıxması da “Molla Nəsrəddin” jurnalı ilə ədəbiyyat və mətbuat dünyasındakı rəqabət zəminində formalaşmışdı. Heç şübhəsiz, “Molla Nəsrəddin”in ədəbi məktəb mərtəbəsinə çatdırılması bu jurnalın yaradıcısı Cəlil Məmmədquluzadənin təşkilatçılıq bacarığının və xüsusi ədəbi məharətinin nəticəsində mümkün olmuşdu. Əslində, Cəlil Məmmədquluzadə Azərbaycandakı Şərq yönlü milli inkişaf meyilləri ilə Qərb maarifçiliyini sintez halında birləşdirməklə yeni tipli ədəbiyyat və mətbuat yaratmağa müvəffaq olmuşdu. Bu da tez bir zamanda “Molla Nəsrəddin” jurnalının öz ətrafına çoxlu sayda tərəfdarlar və pərəstişkarlar toplaya bilməsinə şərait yaratmışdır.

Əvvəla, böyük demokrat ədib Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin” jurnalının proqramını müəyyən etməsi mollanəsrəddinçi ədəbiyyatın və milli mətbuatın konsepsiyasının işlənib hazırlanması demək idi. “Molla Nəsrəddin” jurnalının birinci sayında gedən materiallar yeni ədəbi məktəbin əsas prinsiplərini özündə cəmləşdirən proqram xarakterə malik olan sənət örnəkləridir. Bu sayda baş məqalə kimi təqdim olunan “Sizi deyib gəlmişəm” məqaləsi “Molla Nəsrəddin” jurnalının və eyniadlı ədəbi məktəbin manifestidir. “Molla Nəsrəddin” ədəbi məktəbi üçün səciyyəvi olan müsəlman qardaşlara üz tutmağın bəyan olunması, kiçik adamın mətbuata və ədəbiyyata gətirilməsinin zəruriliyinin əsaslandırılması, tənqid hədəflərinin konkret müəyyən edilməsi, ümummilli mövqeyin meydana qoyulması, açıq ana dilində yazmağın vacibliyinin önə çəkilməsi “Sizi deyib gəlmişəm” məqaləsində öz əksini tapmışdır. Cəlil Məmmədquluzadənin “həqiqi Molla Nəsrəddin” şairini axtarmaq üçün çap etdirdiyi “Lisan bəlası” şeiri sanki “Molla Nəsrəddin” şeir məktəbi üçün müsabiqə xarakterli elannamə idi. Vaxtilə Cəlil Məmmədquluzadənin yazdığı kimi, “Lisan bəlası” şeiri “bir nümunə idi ki, bunu birinci nömrədə çap etməklə biz həqiqi “Molla Nəsrəddin” şairini axtarırdıq. Biz Sabiri və Məşədi Sicimqulunu axtarırdıq. Bir tərəfdən, birinci nömrəmizi şeir babətindən yarımçıq buraxmaq istəmirdik. Və digər tərəfdən də Sabirin və Məşədi Sicimqulunun dünyada varlığından xəbərdar deyildik”.[74]

“Molla Nəsrəddin” jurnalının birinci nömrəsinin üz qabığında Cəlil Məmmədquluzadənin sifarişi əsasında alman rəssamı Oskar Şmerlinqin çəkdiyi “Müsəlman dünyasının oyanışı” adlı nadir karikatura mollanəsrəddinçi karikaturaçılıq sənətinin mükəmməl proqramı idi. İlk saydan etibarən yol göstərmək, istiqamət vermək, təşviq etmək üçün düşünülüb tapılmış, kəşf edilmiş “Molla Nəsrəddin”in teleqramları”, “atalar sözü”, “poçt qutusu”, “bilməli xəbərlər” kimi yeni janrlar sonralar uzun illər boyu mollanəsrəddinçi publisistikanın əsas, aparıcı janrlarına çevrilmişdir. Nəhayət, Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin”in birinci sayında çap etdirdiyi “Dəllək” adlı kiçik hekayəsi bir daha yeni nəşr modelinə örnək kimi diqqətə çatdırılmışdı. Bundan başqa, Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” jurnalında dərc etdirdiyi “Poçt qutusu” yazıları ilə ədəbi qüvvələri yönləndirmiş və formalaşdırmışdır. “Poçt qutusu” yazılarında böyük ədib gələcək mollanəsrəddinçilərin, yeni ədəbi nəslin müəllimi səviyyəsində çıxış edir. “Poçt qutusu” bölməsindəki təlimat xarakterli tapşırıqlar və tövsiyələr “Molla Nəsrəddin” ədəbi məktəbinin ədəbi dərsləridir. Müşahidə olunan cəhətlərdən biri də bundan ibarətdir ki, Cəlil Məmmədquluzadə

[74] Cəlil Məmmədquluzadə. Əsərləri, 4 ciddə, IV cild. Bakı, “Öndər”, 2004, səh. 257.

mollanəsrəddinçi ədəbiyyatın formalaşdırılması prosesində hətta tanınmış, təcrübəli yazıçılara, "Molla Nəsrəddin"in dostlarına və köməkçilərinə də güzəştə getməmiş, həmişə tələbkar münasibət başlamışdır. Jurnalın "Poct qutusu" mətnləri adları çəkilən XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının tanınmış yaradıcıları Əbunəsr Şeybani – Mirzə Ələkbər Sabir, Dabanıçatdaq xala - Əli Razi Şamçızadə, Yetim cücə - Əli Məhzun, Şairimiz - Əli Nəzmi, Cüvəllağı - Əliqulu Qəmküsar, Millət dostları – Əbdürrəhim bəy Haqverdiyev, Palanduz - Salman Mümtaz, Yeni dastançı – Məhəmmədəli Sabitin yaradıcılığına istiqamət və təkan verən ədəbiyyat dərsləri idi.

Nəhayət, etiraf etmək lazımdır ki, Cəlil Məmmədquluzadənin bənzərsiz bədii əsərləri də həm "Molla Nəsrəddin" dövrü Azərbaycan ədəbiyyatı, həm də ümumən ədəbiyyatımız üçün örnək sayılmağa tam layiq olan dəyərli ədəbi nümunələrdir. Ədəbiyyatımıza və mətbuatımıza kiçik hekayəni və kiçik adamı, tragikomediyanı və satirik publisistikanı, felyeton janrını, "açıq ana dili" üslubunu və azərbaycançılıq məfkurəsini, cümhuriyyət anlayışını gətirmiş Mirzə Cəlil Məmmədquluzadə ədəbi-ictimai fikrimizin Molla Nəsrəddin dövrünün yaradıcısıdır. Haqlı olaraq müasirləri onu daha geniş mənada "ədəbi dövrün başçısı" (Yusif Vəzir Çəmənzəminli) kimi də dəyərləndirmişlər. Başçılıq etdiyi jurnalın ətrafına toplayıb vahid ədəbi cəbhədə birləşdirdiyi, eyni məfkurəyə və üsluba yönləndirdiyi yazıçı və şairlər, publisistlər və karikaturaçılarla Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" ədəbi məktəbini formalaşdırmağa müvəffəq olmuşdur. Mollanəsrəddinçi sənətkarlardan hər biri bu ədəbi məktəbin daha da zənginləşməsinə və yetkinləşməsinə özünün layiqli əlavələrini etmiş, ədəbiyyatın inkişafına böyük xidmət göstərmişlər. Nəticədə Azərbaycan ictimai-bədii fikrinin çoxəsrlik tarixində konkret bir mətbuat orqanı əsasında yeni tipli mollanəsrəddinçi ədəbi məfkurə parlaq bir yaradıcılıq məktəbi kimi mühitin fövqünə yüksələ bilmişdir.

***

"Molla Nəsrəddin" məktəbi geniş anlayış olub, özündə bir neçə yaradıcılıq istiqamətini, çoxsaylı yaradıcı qüvvələri birləşdirən ədəbi cəbhə funksiyasını həyata keçirmişdir. Bir çox yaradıcılıq sahələri "Molla Nəsrəddin" ədəbi məktəbi içərisində onun hüdudları daxilində xüsusilə inkişaf edərək daha qabarıq şəkildə nəzərə çarpmışdır. Beləliklə, "Molla Nəsrəddin" jurnalı əsasında vahid ədəbi məktəb daxilində bir neçə məktəb, necə deyərlər, məktəb içində məktəblər yaranmışdır. "Molla Nəsrəddin" şeir məktəbi, mollanəsrəddinçi realist nəsr, satirik publisistika və karikatura məktəbləri "Molla Nəsrəddin" ədəbi məktəbinin üzvi tərkib hissələridir. Doğrudur, bu məktəblərdən hər biri, xüsusən mollanəsrəddinçi satirik şeir məktəbi həm də müstəqil ədəbi məktəb təsiri bağışlayır. Hətta "Molla Nəsrəddin" şeir məktəbinin zəminində formalaşmış və xüsusi bir Sabir satira məktəbi də nəzərə çarpmaqdadır. Yaxud "Molla Nəsrəddin" karikatura məktəbi ənənələri əsasında ayrıca Əzim Əzimzadə karikaturaçılıq məktəbinin yaranması da inkarolunmaz faktdır. Bütün bunlar nəinki "Molla Nəsrəddin" ədəbi məktəbinin əhəmiyyətini azaltmır, əksinə, bu möhtəşəm, nəhəng məktəbin geniş sənət imkanlarını nümayiş etdirir.

Qeyd etmək lazımdır ki, "Molla Nəsrəddin" ədəbi məktəbinin bütün qolları özünün tanınmış təmsilçiləri, yetirmələri, davamçıları baxımından "məhsuldar"

görünür. Bununla belə, "Molla Nəsrəddin" şeir məktəbi daha geniş nailiyyətləri ilə nəzərə çarpır. Azərbaycan ədəbiyyatında Mirzə Ələkbər Sabir kimi nəhəng satirik şairin meydana çıxması sözün geniş mənasında türk-müsəlman dünyası satirasının da ən yüksək ədəbi nəticəsi sayılmalıdır. Dünya ədəbiyyatında satirik şeirin yüksək sənətkarlığına və vüsətinə görə Mirzə Ələkbər Sabirlə yanaşı dura biləcək şairlər çox deyildir. Həqiqətən də müasiri Abbas Səhhətin yazdığı kimi, "Sabir əfəndi... köhnə şeirlərlə yeni şeirlər arasında bir əsrlik qədər uçurum açdı ki, bir daha geri dönüb də o uçurumu atlanmağa kimsədə cürət və cəsarət qalmadı".[75] Ona görə də Sabir satirik şeir məktəbi müstəqil ədəbi cəbhə səviyyəsinə yüksəlmiş, özünün davamçılarını yetişdirmişdir.

"Molla Nəsrəddin" şeir məktəbi Azərbaycan ədəbiyyatında Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri, Bayraməli Abbaszadə, Əli Razi Şamçızadə, Əliabbas Müznib, Əli Məhzun, Məhəmmədəli Sabit, Mirzə Cabbar Əsgərzadə və başqaları kimi sənətkarları yetirib ərsəyə gətirmişdir. 30-dan artıq satirik şeiri çap olunan Cəlil Məmmədquluzadə də ədəbi məktəbin şeir qoluna öz töhfələrini vermişdir.

Bu ədəbi məktəbin nəşr qolunun təmsilçiləri kəmiyyət etibarilə çox deyildir. Bununla belə, təkcə Cəlil Məmmədquluzadənin nəsr əsərləri "Molla Nəsrəddin"in nəsr qolunun müstəqil ədəbi istiqamət səviyyəsinə yüksəlməsi üçün tam yetərli örnək idi. Nəinki "Molla Nəsrəddin" ədəbi məktəbinin nəsr qoluna, bütövlükdə Azərbaycan ədəbiyyatında tənqidi-realist və satirik nəsr yaradıcılığına Cəlil Məmmədquluzadə ədəbi məktəbi də demək mümkündür. Konkret olaraq realist-satirik nəsr sahəsində Azərbaycan ədəbiyyatında Cəlil Məmmədquluzadədən uca zirvə yoxdur. Özündən sonrakı ədəbiyyata təsir etmək baxımından Cəlil Məmmədquluzadəni yalnız Mirzə Fətəli Axundzadə ilə müqayisə etmək mümkündür. Mollanəsrəddinçi bədii nəsrimizi Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Eynəli bəy Sultanov kimi görkəmli sənətkarlar da uğurla inkişaf etdirmişlər.

Mollanəsrəddinçi satirik publisistika Azərbaycan ədəbi-ictimai fikrində müstəqil bir istiqamət kimi möhkəm yer tutmağa, ədəbiyyat və mətbuat tarixində yol açmağa layiq olan zəngin və kamil sənət nümunəsidir. Mollanəsrəddinçi publisistika milli mətbuatımızın tarixində yeni hadisədir. Cəlil Məmmədquluzadənin publisistikası yazıçının bədii nəsri, yaxud dramaturgiyası qədər qiymətli və əhəmiyyətlidir, hətta daha kəskin, aktual və müasirdir. Ömər Faiq Nemanzadə mollanəsrəddinçi publisistikanı dəyərli, kamil sənət örnəkləri olan əsərlərlə zənginləşdirmişdir. Məmməd Səid Ordubadinin, Əli Nəzminin, Əliqulu Qəmküsarın şairliklə yanaşı, satirik publisistika sahəsində də mühüm nailiyyətləri vardır. Məhəmmədəli Sidqi, Qurbanəli Şərifov, Rzaqulu Nəcəfov, Əbülfət Ələvi, İskəndərxan Qəffari Sürxpuş, Süleyman Məlikov, Məhəmmədəli Nasir, Nəsrulla Qənbərov və başqalarının da mollanəsrəddinçi publisistikanın inkişafında özlərinə məxsus xidmətləri qeyd olunmalıdır.

Karikaturanı mətbuata gətirmək Cəlil Məmmədquluzadənin və "Molla Nəsrəddin" jurnalının xüsusi xidməti sayılmağa layiqdir. Xüsusi aktuallığa, mühüm əyanilik imkanlarına malik olan karikaturalar mollanəsrədddinçi şeiri, bədii nəsri və

---

[75] Abbas Səhhət. Sabir, "Yeni İqbal" qəzeti, 29 avqust 1911, N°2

publisistikanı tamamlamış və daha da qüvvətləndirmişdir. “Molla Nəsrəddin” jurnalının oxucularının və abunəçilərinin coğrafiyasının genişlənməsində karikaturaların müstəsna rolu var idi. Mübariz jurnalın cəmiyyətdə baş verən ictimai-siyasi hadisələrə, demokratik proseslərə təsir etməsi baxımından da karikaturalar ciddi əhəmiyyətə malik olmuşdur. Mollanəsrəddinçi karikaturanın inkişafına Mirzə Cəlil Məmmədquluzadə xüsusi əhəmiyyət vermiş, geniş meydan açmış, böyük qayğı göstərmişdir. Müxtəlif illərdə “Molla Nəsrəddin”lə əməkdaşlıq etmiş Əzim Əzimzadə, İsmayıl Axundov, Qəzənfər Xalıqov, Yusif Vəzir Çəmənzəminli, Hüseyn Əliyev, Hüseynqulu Zeynalov, Əmir Hacıyev (Azərbaycan), Konstantin Dorş, Qrinyevski (Rusiya), Oskar Şmerlinq, Jozef Rotter (Almaniya), Beno (Ukrayna), Seyidəli Behzad (Təbriz), Xəlil Musayev (Dağıstan), Giladze (Gürcüstan) və başqaları kimi karikatura ustaları “Molla Nəsrəddin” jurnalı vasitəsilə yetişib parlamış, ad-san qazanmışlar.

Göründüyü kimi, “Molla Nəsrəddin” ədəbi məktəbi bir neçə istiqamətdə inkişaf etmiş, ədəbiyyatımıza, milli mədəniyyətimizə, mətbuatımıza və ictimai fikrimizə böyük sənət uğurları qazandırmışdır.

***

“Molla Nəsrəddin” jurnalı və eyniadlı ədəbi məktəb mollanəsrəddinçilik adlanan xüsusi bir təlimi meydana çıxarmışdır. “Molla Nəsrəddin” ədəbi məktəbinin ideya əsasını mollanəsrəddinçilik təlimi təşkil edir.

Mollanəsrəddinçilik təlimi ilk növbədə “Molla Nəsrəddin” ədəbi məktəbinin, tənqidi realizmin nizamnaməsi və əsasnaməsidir, “ictimai-ədəbi fikir cərəyanı deməkdir”.[76]

Milli müstəqillik və azadlıq uğrunda mübarizə mollanəsrəddinçilik hərəkatının əsas qayəsidir.

Azərbaycançılıq – mollanəsrəddinçilik təliminin ideya əsasını və hərəkətverici qüvvəsini təşkil edir. Mollanəsrəddinçilik və azərbaycançılıq sinonim baxışlar səviyyəsində səslənir.

Kiçik adamın timsalında xalq anlayışını ədəbiyyata və mətbuata gətirmək və müdafiə etmək mollanəsrəddinçiliyin təməl şərtlərindəndir.

Açıq ana dilində” yazmaq, “açıq yazmağı da bacarmaq” mollanəsrəddinçilik hərəkatını təmsil edən şair və yazıçıların əsas üslubi istiqamətini müəyyən edir.

Mollanəsrəddinçilik - ictimai satira vasitəsilə cəmiyyəti dəyişmək, yeniləşdirmək, xalqı irəli aparmaq, milli-mənəvi özünüdərk proseslərini dərinləşdirmək deməkdir.

Mollanəsrəddinçilik - ədəbiyyatda realizm və satira məktəbi kimi qəbul olunur. Mollanəsrəddinçi ədəbi hərəkat – tənqidi realizm cəbhəsindən ibarət ədəbiyyat cərəyanıdır.

Satiranın bütün gücü və imkanları mollanəsrəddinçilik təlimində öz əksini tapır. “Molla Nəsrəddin” jurnalının dili, üslubu, janrları, tipajları və karikaturaçılıq

[76] Əziz Mirəhmədov. Azərbaycan Molla Nəsrəddini. Bakı, “Yazıçı”, 1980, səh. 256.

mollanəsrəddinçi poetikanın əsasını təşkil edir. Mollanəsrəddinçilik - satirik publisistikanın siyasi kəsəri, yüksək vətəndaşlıq ruhu, forma müxtəlifliyi, zəngin sənətkarlıq imkanları mənasını da ifadə edir.

Mollanəsrəddinçilik - ədəbiyyatda və ictimai fikirdə demokratik proseslərin genişləndirilməsi və müdafiə olunması hərəkatı deməkdir.

"Molla Nəsrəddin" jurnalının çoxillik fəaliyyəti artıq tarixin faktına çevrilmişdir. Mollanəsrəddinçilik ideyaları və təlimi isə davam edir. Müstəqil Azərbaycan dövləti və məmləkəti, azərbaycançılıq məfkurəsi, milli ədəbiyyatımız və mətbuatımızla birlikdə "Molla Nəsrəddin" ədəbi məktəbi də ənənələri, mollanəsrəddinçilik təlimi yaşamaqda davam edəcək, inkişafa, tərəqqiyə özünün böyük təsirini göstərəcəkdir. Azərbaycan ədəbiyyatının, mətbuatının, ictimai fikrinin və karikatura sənətinin son yüz ildən artıq dövrdəki bütün əsas inkişaf istiqamətlərinin hamısında Cəlil Məmmədquluzadənin zəngin irsindən və "Molla Nəsrəddin" jurnalından "bir duz" vardır.

Azərbaycan dövləti Cəlil Məmmədquluzadənin, mollanəsrəddinçi şair və yazıçıların, "Molla Nəsrəddin" jurnalının fəaliyyətinə yüksək qiymət vermişdir. "Molla Nəsrəddin" ədəbi məktəbinin əsas yaradıcılarının və jurnalın özünün dövlət səviyyəsində yubileyləri keçirilmişdir. "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradıcılarının çap edilmiş əsərlərindən böyük bir kitabxana yaratmaq mümkündür. "Molla Nəsrəddin" jurnalına və mollanəsrəddinçilərə həsr edilmiş tədqiqat əsərləri əsasında Azərbaycan humanitar və ictimai elmləri sahəsində mollanəsrəddinşünaslıq elmi istiqaməti formalaşmışdır. Azərbaycan ədəbiyyatşünaslarından Əli Nazim, Həbibulla Səmədzadə, Mirzə İbrahimov, Mir Cəlal, Əziz Şərif, Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, Əziz Mirəhmədov, Qulam Məmmədli, Firudin Hüseynov, İslam Ağayev, Hüseyn İsrafilov, Əhəd Hüseynov, Ataxan Paşayev, Yəhya Əliyev, Allahverdi Məmmədli, Ramiz Qasımov, Aygün Orucova və başqaları Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının, mollanəsrəddinçi ədəbiyyatın tədqiqinə sanballı töhfələr vermişlər.

Görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin aşağıdakı kəlamları bütövlükdə mollanəsrəddinçilik təliminə dövlət səviyyəsində verilmiş yüksək qiyməti ifadə edir: "Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir."[77]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Molla Nəsrəddin" jurnalının 100, Cəlil Məmmədquluzadənin 130 və 140 illik yubileyləri geniş miqyasda ədəbiyyatın və mətbuatın bayramı kimi qeyd edilmişdir.

Azərbaycançılıq proqramının həyata keçirilməsində, milli-mənəvi özünüdərk proseslərinin, müstəqil dövlətcilik düşüncələrinin dərinləşməsində, dünya gedişatından doğru-düzgün baş çıxarmaqda, dostu və düşməni düzgün tanıya bilməkdə XX əsrin əvvəllərində nəşr olunmuş "Molla Nəsrəddin" jurnalı bugünkü oxucusuna da etibarlı

---

[77] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (tərtib edəni V.Quliyev). Bakı, "Ozan", 1999, səh. 241

surətdə bələdçilik edə bilir. Heç şübhə yoxdur ki, “Molla Nəsrəddin” jurnalı Vətənimizin və xalqımızın bundan sonrakı yüksəlişlərinə, daha da inkişaf edib möhkəmlənməsinə şərəflə xidmət edəcək, gur işıq salacaqdır.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat institutunda görkəmli ədəbiyyatşünas Əziz Mirəhmədovun rəhbərliyi ilə mətnşünaslar qrupu tərəfindən “Molla Nəsrəddin” jurnalı əski əlifbadan kiril və latın əlifbalarına çevrilmişdir.

Aktuallığı və əhəmiyyəti nəzərə alınmaqla müxtəlif vaxtlarda “Molla Nəsrəddin” jurnalının yenidən kiril və latın əlifbaları ilə nəşrlərinin hazırlanması sahəsində addımlar atılmışdır. “Elm” nəşriyyatında 1988-ci ildə jurnalın 1906-1907-ci il nəşrləri əsasında “Molla Nəsrəddin”in kiril əlifbası ilə birinci cildi kitab halında çap olunmuşdur. On iki cilddə nəzərdə tutulan bu nəşrin sonrakı cildləri nəşr edilməmişdir.

“Molla Nəsrəddin” jurnalı sonradan 1996-2010-cu illərdə Nizami adına Ədəbiyyat İnstitutu tərəfindən latın qrafikası ilə 8 cilddə çap olunmuşdur. Lakin bu nəşr məhdud tirajda olduğu üçün mövcud tələbatı ödəyə bilməmişdir. Hazırda oxuculara təqdim edilən “Molla Nəsrəddin” jurnalının 10 cildlik nəşri geniş oxucu auditoriyasının, tədqiqatçıların, müəllimlərin və tələbələrin ehtiyaclarını tam yerinə yetirmək zərurətindən yaranmışdır. Bu qiymətli nəşr ədəbiyyatın və incəsənətin, klassik ədəbi-mətbu irsin inkişafına göstərilən dövlət qayğısının mühüm bir göstəricisidir.

“Molla Nəsrəddin” jurnalının yeni nəşrləri təzə epoxanın yeni nəsilləri üçün ibrətamiz tərbiyə və özünüdərk məktəbidir.

Mollanəsrəddinçilik – müstəqil dövlətçilik idealına və azərbaycançılıq məfkurəsinə sədaqətlə xidmət etmək deməkdir.

Mollanəsrəddinçilik - daim hərəkətdə və inkişafda olan əbədiyaşar ictimai fikir və ədəbiyyat təlimidir.

“Molla Nəsrəddin” ədəbi məktəbinin azərbaycançılıq idealları müstəqil Azərbaycanda milli dövlətçiliyin daha da möhkəmləndirilməsinə, ədəbi-ictimai fikrin inkişaf etdirilməsinə xidmət göstərir.

18 yanvar 2017-ci il